# XƏZƏR XƏBƏR

Aprel 2026

№ 460

# KHAZAR REVIEW




AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org



# LİTVA RESPUBLİKASININ BAŞ NAZİRİ İNQA RUQİNİENE XƏZƏR UNİVERSİTETİNDƏ



# LİTHUANİAN PRİME MİNİSTER İNQA RUQİNİENE AT KHAZAR












# İÇİNDƏKİLƏR

Litva Respublikasının Baş naziri İnqa Ruqiniene Xəzər Universitetində......6
"Xəzər"də rektorlar forumu ......10
Beynəlxalq əməkdaşlıq və qazanılmış qrant müzakirə olunub ......13
"Ömür yolu yol deyil ki ..." ......14
Prof.Akad. Hamlet İsaxanlı ADA Universitetində kitab təqdimatında ......17
Xəzər Universitetinin Tədris işləri üzrə prorektoru professor Məhəmməd Nuriyevə təbrik məktubu ......18
"Xəzər"də yubiley tədbiri......19
"Uğurun Şorbası: əməkdaşlar üçün "Peşə etikası və təşkilati davranış" mövzusunda təlim ......22
Tələbələr üçün məlumat sessiyası ......24
Xəzər Universitetinin rektoru "IV TUSİ" İnkubasiya proqramının "Demo Day" tədbirində ......26
"Cəlil işığı" tamaşasının premyerası ......27
"Ömrün harasındayıq" poeziya və musiqi gecəsi ......28
"Xəzər" in müəlliminin yeni kitabı......31
Xəzər Universiteti ilə Azerbaijan Poultry Company və Azerbaijan Fish Farm arasında Anlaşma memorandumu imzalanıb ......32
Əməkdaşlar Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunda ......34
"Xəzər"in tələbəsi Almaniyada sertifikat alıb......35
"Xaricdə magistr təhsili" mövzusunda məlumat sessiyası......36
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri......38
*Fəridə Tatardar*."Dəli Ceyran"......40
"Xəzər"in nümayəndələri SOCAR-da seminarda......42
Kendo üzrə seminar ......43
AIESEC Azərbaycan təşkilatı nümayəndələrinin tələbələrlə görüşü......44
Ankara Sosial Elmlər Universitetinin nümayəndəsi "Xəzər"də ......45
Universitetdə mikromobillik və velosiped mədəniyyəti təşviq olunur......46
"Xəzər"də məzunlarla görüş ......54
*Leyla Mustafayeva*. İnsan fəlsəfəsi......56
Xəzər Universiteti nümayəndə heyətinin Çinə işgüzar səfəri......58
Siyasi elmlər və fəlsəfə departamenti müdirinin Amerika səfəri ......61
Xəzər Universitetinin məzunu Tağı Məmmədov Çində doktorantura təhsilini davam etdirir......64
"Xəzər"in məzunu Koreya Universitetində Fəlsəfə doktoru elmi dərəcəsi alıb......66
Latviya universitetinin nümayəndəsi Xəzər Universitetində ......68
"Xəzər"in tələbəsi Amerikada keçirilən beynəlxalq sərgidə......69
Almatıda "Azərbaycanda Təhsil" sərgisi və rektorlar forumu ......70
TürkolojI Qurultayın 100 İlliyinə həsr olunmuş beynəlxalq simpozium ......72

*Jurnalın üz qabığında: Litvanın baş naziri İnqa Ruqiniene, Prof.Akad.Hamlet İsaxanlı*

1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Qəzənfər Paşayev
Knyaz Aslan

**İngilis dilinə tərcümə və redaktə:**
Elmira Cahangirli

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS


**Lithuanian Prime Minister İnqa Ruqiniene at Khazar**......6
**Rectors' Forum at Khazar University**......10
**International Cooperation and Awarded Grant Discussed**......13
**"Life's Journey Is Not Just a Road..."**......14
**Prof. Acad. Hamlet Isakhanli at Book Presentation at ADA University**......17
**A Congratulatory Letter to Professor Mahammad Nuriyev, Vice-Rector for Academic Affairs at Khazar University**......18
**Jubilee Event at Khazar University**......19
**"The Soup of Success": Training on "Professional Ethics and Organizational Behavior" for Staff**......22
**Information Session for Students**......24
**Rector of Khazar University at "Demo Day" Event of "IV TUSI" Incubation Program**......26
**Premiere of "The Light of Jalil" Performance**......27
**"Where Are We in Life's Journey" Poetry and Music Evening**......28
**New Book by Khazar's Teacher**......31
**Memorandum of Understanding Signed Between Khazar University and Azerbaijan Poultry Company and Azerbaijan Fish Farm**......32
**Staff Members at Scientific Research Institute of Medical Preventive Medicine**......34
**Khazar University Student Receive Certificate in Germany**......35
**Information Session on "Master's Education Abroad"**......36
**News of Institute of ANAS Named after Nizami** (*in Azerbaijani*)......38
*Farida Tatardar*, **Wild Gazelle** (*in Azerbaijani*)......40
**Khazar Representatives at Seminar in SOCAR**......42
**Seminar on Kendo**......43
**Meeting of AIESEC Azerbaijan Representatives with Students**......44
**Representative of Ankara Social Sciences University at Khazar**......45
**Micromobility and Cycling Culture Promoted at University**......46
**Meeting with Alumni at "Khazar"**......54
*Leyla Mustafayeva*. **Human philosophy** (*in Azerbaijani*)......56
**Business Visit of Khazar University Delegation to China**......58
**America Visit of Head of Department of Political Science and Philosophy**......61
**Khazar University Graduate Taghi Mammadov Pursues PhD Studies in China**......64
**Khazar University Graduate Earns PhD Degree from Korea University**......66
**Representative of Latvian University Visit Khazar University**......68
**Khazar Student in International Exhibition Held in United States**......69
**"Study in Azerbaijan" Exhibition and Rectors' Forum in Almaty**......70
**International Symposium Dedicated to 100th Anniversary of Turkological Congress**......72


*On the cover page of the journal: Lithuanian Prime Minister Inga Ruginienė, Prof.Acad.Hamlet Isakhanli*


It has been published since January 1995

**Founder**: Khazar University

**Editor-in-chief**: Hamlet Isakhanli

**Associate editor**: Alirza Balayev

**Photo**: Multimedia Centre

Khazar University

Adress:
41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Circulation: 3000



**Editorial members:**
Alla Akhundova
Gazanfar Pashayev
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan

**Translation and editing into English:**
Elmira Jahangirli

**Computer graphics:**
Gunel Akbarova

# LİTVA RESPUBLİKASININ BAŞ NAZİRİ İNQA RUQİNİENE XƏZƏR UNİVERSİTETİNDƏ

# LİTHUANİAN PRİME MİNİSTER İNQA RUQİNİENE AT KHAZAR

Litva Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi ilə əməkdaşlıq çərçivəsində aprelin 9-da Xəzər Universitetində “Not All of Them: Portraits of War Refu-



*Hamlet İsaxanlı*

gees”(“Onların hamısı deyil: müharibə qaçqınlarının portretləri”) adlı sərgi təşkil edilib. Tədbir beynəlxalq əməkdaşlığın inkişafı, humanitar dəyərlərin təşviqi

Within the framework of cooperation with the Embassy of the Republic of Lithuania to the Republic of Azerbaijan, an exhibition titled "Not All of Them: Portraits of War Refugees" was organized at Khazar University on April 9. The event was of significant importance in terms of advancing international cooperation, pro-




*Raziyə İsayeva*





*İnqa Ruqiniene*

və müharibənin insan talelərinə təsirinin ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edib. Sərgidə Litva Respublikasının Baş naziri İnqa Ruqiniene, eyni zamanda, Litva Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Kestutis Vaşkeleviç və Litva Respublikasının digər dövlət rəsmiləri, həmçinin, Ukraynanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Yuriy Husyev`in rəhbərliyi ilə səfirliyin nümayəndə heyəti iştirak ediblər. Sərgidən öncə qonaqlar ilə universitet rəhbərliyi arasında rəsmi görüş keçirilib. Görüşdə Xəzər Universitetindən Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad.

(*Ardı səh.8-də*)

moting humanitarian values, and raising public awareness of the impact of war on human lives. The exhibition was attended by Prime Minister of the Republic of Lithuania İnqa Ruqiniene, as well as the Ambassador Extraordinary and Plenipotentiary of the Republic of Lithuania to the Republic of Azerbaijan Kęstutis Vaškelevičius, other Lithuanian state officials, and a delegation from the Embassy of Ukraine to the Republic of Azerbaijan, led by Am-



*Yuriy Husyev*

bassador Extraordinary and Plenipotentiary Yuriy Veniaminovych Husiev.

Prior to the exhibition, an official meeting was held between the guests and the university leadership. Khazar University was represented at the meeting by

(*To be continued page 8*)






Hamlet İsaxanlı, rektor Dr. Raziyə İsayeva və Tədris işləri üzrə prorektor Prof. Məhəmməd Nuriyev iştirak ediblər. Görüş zamanı tərəflər arasında ali təhsil sahəsində mövcud əlaqələr və gələcək əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılıb. Müzakirələr zamanı Litva ali təhsil müəssisələri ilə Xəzər Universiteti arasında təhsil və elm sahələrində əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanıb. Akademik mübadilə proqramları, birgə elmi tədqiqatlar və institusional tərəfdaşlıq imkanları əsas müzakirə mövzularından olub.

Tədbirin Mərmər zalda keçirilən rəsmi hissəsində dəvət edilmiş qonaqlar, dövlət rəsmiləri və Xəzər Universitetinin əməkdaşları və tələbələri iştirak ediblər. Bu geniş iştirak tədbirin akademik ictimaiyyət tərəfindən yüksək maraqla qarşılandığını və universitet daxilində beynəlxalq təşəbbüslərə verilən önəmi bir daha nümayiş etdirib. Açılış mərasimində çıxış edənlər - Prof.Akad. Hamlet İsaxanlı, Dr. Raziyə İsayeva və Baş nazir İnqa Ruqiniene və Ukraynanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Yuriy Husyev belə təşəbbüslərin yalnız mədəni deyil, eyni zamanda, sosial və humanitar baxımdan da mühüm rol oynadığını bildiriblər. Qeyd olunub ki, bu cür layihələr müxtəlif empatiyanın gücləndirilməsinə, müharibədən zərər çəkmiş insanların səsinin daha geniş auditoriyaya çatdırılmasına və beynəlxalq həmrəyliyin möhkəmlənməsinə töhfə verir.

Sərgidə Litvada sığınacaq tapmış ukraynalı müharibə qaçqınlarının həyat hekayələrini əks etdirən fotoşəkillər təqdim olunub. Ağ-qara formatda nümayiş etdirilən bu əsərlər ziyarətçilərə müharibənin ağır nəticələrini dərindən hiss etdirməklə yanaşı, insan iradəsi, dözümlülük və ümid kimi universal dəyərləri də ön plana çıxarıb. Hər bir fotoşəkil fərdi bir həyat

Prof. Hamlet Isakhanli, Chairman of the Board of Directors and Trustees, Rector Dr. Razia Isaeva, and Vice-Rector for Academic Affairs Prof. Muhammad Nuriyev. During the meeting, the parties exchanged views on existing ties in the field of higher education and prospects for future cooperation. The importance of expanding collaboration between Lithuanian higher education institutions and Khazar University in the areas of education and science was emphasized. Academic exchange programs, joint scientific research, and institutional partnership opportunities were among the main topics of discussion.

The formal part of the event, held in the Marble Hall, was attended by invited guests, state officials, as well as Khazar staff and students. This broad participation once again demonstrated the high level of interest shown by the academic community and the importance the university places on international initiatives. Speaking at the opening ceremony, Prof. Hamlet Isakhanli, Dr. Razia Isaeva, and Prime Minister İnqa Ruqiniene and Ambassador of Ukraine to the Republic of Azerbaijan Yuriy Husyev noted that such initiatives play a significant role not only in cultural terms, but also from a social and humanitarian perspective. It was noted that projects of this kind contribute to strengthening empathy, amplifying the voices of those affected by war to a wider audience, and consolidating international solidarity.

The exhibition featured photographs depicting the life stories of Ukrainian war refugees who have found refuge in Lithuania. Presented in black-and-white format, these works offered visitors a profound sense of the devastating consequences of war, while also foregrounding universal values such as human resilience, endurance, and hope. Each photograph reflected an individual life story, powerfully conveying the lasting marks left by war on human destinies.




hekayəsini əks etdirərək, müharibənin insan talelərində buraxdığı izləri təsirli şəkildə nümayiş etdirib.

Sərgi qonaqlar və tələbələr tərəfindən böyük maraqla qarşılanıb. İştirakçılar təqdim olunan əsərlərlə yaxından tanış olaraq, onların daşıdığı emosional və sosial mesajları yüksək qiymətləndiriblər. Qeyd edək ki, bu cür beynəlxalq tədbirlər Xəzər Universitetinin qlobal əməkdaşlıq şəbəkəsinin genişləndirilməsi, mədəniyyətlərarası dialoqun təşviqi və sosial məsuliyyət təşəbbüslərinə verdiyi önəmin bariz nümunəsidir. Səmimi və konstruktiv şəraitdə keçən görüş tərəflər arasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə xidmət edib və xatirə şəklinin çəkilməsi ilə yekunlaşıb.

The exhibition was met with great interest by guests and students. Attendees engaged with the works on display and expressed high appreciation for the emotional and social messages they carried. It should be noted that such international events are a clear testament to Khazar's commitment to expanding its global cooperation network, fostering intercultural dialogue, and advancing social responsibility initiatives. The meeting, conducted in a sincere and constructive atmosphere, served to strengthen mutual understanding between the parties and concluded with a group photograph.



## "XƏZƏR"DƏ REKTORLAR FORUMU

Xəzər Universitetinin 35 illik yubiley tədbirləri çərçivəsində martın 18-də universitetin Mərmər zalında "Gələcəyin universiteti: tədqiqat, süni intellekt və innovasiyalar" mövzusunda rektorlar forumu keçirilib.Forumu giriş sözü ilə universitetin rektoru Dr. Raziyə İsayeva açaraq, qlobal ali təhsil sahəsində baş verən dəyişikliklərin müzakirə edilməsi, həmçinin, ali təhsilə süni zəkanın təsiri mövzusunun aktuallığını qeyd edib. Dr. R. İsayeva, həmçinin, bildirib ki, "Xəzər"in yubiley tədbirləri il ərzində davam edəcək.



*Hamlet İsaxanlı*

Xəzər Universitetinin qurucusu, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı iştirakçıları salamlayaraq, forumun işinə uğurlar arzulayıb.Qeyd edib ki, belə müzakirələr ali təhsil sahəsində mövcud çətinliklərin, problemlərin aradan qaldırılması üçün ideyalar və təkliflər, eyni zamanda, birgə düşüncə baxımından çox faydalıdır. Ali təhsilin kütləviləşdirilməsinin müsbət hal olduğunu vurğulayan H. İsaxanlı bu kütləviliyin keyfiyyətə necə təsir etdiyini də unutmamağın vacibliyini bildirib. Unutmaq olmaz ki, süni

## RECTORS' FORUM AT KHAZAR UNIVERSITY

As part of the celebrations marking the 35th anniversary of Khazar University, a rectors' forum titled "The University of the Future: Research, AI and Innovation" was held on March 18, in the Marble Hall. The forum was opened with introductory remarks by the rector, Dr. Razia Isaeva, who highlighted the importance of discussing the changes taking place in global higher education, as well as the impact of artificial intelligence on higher education. Dr. Isaeva also noted that Khazar University's anniversary events would continue throughout the year.



*Raziyə İsayeva*

The founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, welcomed the participants and wished success to the forum's proceedings. He noted that such discussions are valuable in terms of generating ideas and proposals for overcoming existing challenges in higher education, as well as fostering collective thinking. Emphasizing that the massification of higher education is a positive factor, Isakhanli also stressed the importance of not overlooking how this massification affects quality. He noted that AI has begun to transform life itself. Many things

zəka həyatı dəyişməyə başlayıb. Artıq çox şey ənənəvilikdən çıxır, buna görə təhsil də yeni yanaşma, innovativ münasibət tələb edir.Türkiyənin Kütahya Dumlupınar Universitetinin rektoru Prof. Dr. Süleyman Kızıltoprak "Sosial elmlərin hibrid gələcəyi" mövzusunda məruzə edib.Sonra forum Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayevanın moderatorluğu ilə panel müzakirələrlə davam edb. Müzakirələrdə İbn Haldun Universitesinin rektoru Prof.Dr. Atilla Arkan, Almatı Menecment Universitetinin rektoru Dr. Assylbek Kozhakmetov, Gürcü-Amerika Universitetinin həmtəsisçisi və prezidenti Michael Cowgill, Türk Dövlətləri Beynəlxalq Universitetinin rektoru Prof. Bahodir Turayev və Narxoz Universitetinin rektoru Kanat Kojaxmet çıxış ediblər.

Sonda iştirakçıların sualları cavablandırılıb.



*Süleyman Kızıltoprak*




*Assylbek Kozhakmetov, Kanat Kojaxmet, Atilla Arkan, Michael Cowgill, Süleyman Kızıltoprak, Bahodir Turayev, Raziyə İsayeva*

are moving away from the traditional, and therefore education too demands new approaches and innovative attitudes.

Prof. Dr. Süleyman Kızıltoprak, rector of Kütahya Dumlupınar University in Türkiye, delivered a presentation on "The Hybrid Future of Social Sciences."

The forum then continued with panel discussions moderated by rector of Khazar University Dr.Razia İsaeva. Participants in the discussions included Prof. Dr. Atilla Arkan, rector of Ibn Haldun University; Dr. Assylbek Kozhakmetov, rector of Almaty Management University; Mikael Cowgill, co-founder and president of the Georgian-American University; Prof. Bahodir Turayev, rector of the International Turkic States University; and Kanat Kojakhmet, rector of Narxoz University.

The forum concluded with a question-and-answer session for participants.

"XƏZƏR"Ə YUBİLEY TƏBRİKİ

ANNIVERSARY CONGRATULATIONS TO "KHAZAR"

EDUCATION & TRAINING SERVICES

01-04/2026TS
1aprel 2026-cı il

**Xəzər Universitetinin rektoru**
**Dr. Raziyə İsayeva**

**Hörmətli Raziyə xanım!**

Xəzər Universitetinin şöhrəti ölkə daxilində və onun sərhədlərindən kənarda xoş sədalarla qarşılanır. Xəzər Universitetinin güclü elm, təhsil, ictimai inkişaf proqramları, tələbə və mütəxəssislərə qayğı və onun dəyərləri hər bir vətəndaş tərəfindən böyük fəxarət hissi ilə anılır. Gənclərin bu universitetə maraqlarının artması da təsadüfü deyil. O cümlədən, təhsil və tədris ilə məşğul olan bir təşkilat kimi Xəzər Universitetinin davamlı uğurları bizi də sevindirir, verilən əməyi çox yüksək qiymətləndiririk. Bu nailiyyətlərdə sözsüz ki, böyük alim, professor Hamlet müəllim İsaxanlının əvəzsiz rolunu qeyd etməmək olmaz.

"Education and Training Services" MMC 2023-cü ildə təsis edilmişdir. MMC-nin əsas missiyası yüksək səviyyəli mütəxəssis hazırlığı, onların müasir əmək bazarında geniş yer alması üçün inkişafıdır. "ETS" MMC neft-qaz sektoru, alternativ enerji, idarəetmə, özünü inkişaf modelləri, elmi işlərə dəstək sahələrini əhatə edən təlimlər, mentorluq proqramları, işə hazırlıq və konsultasiya xidmətlərini icra edir. Təşkilatımız yarandığı gündən aktiv fəaliyyət göstərir və bu müddət ərzində xeyli sayda tədbirlər təşkil etmişdir. Bu tədbirlərdən biri də Xəzər Universiteti, "Neftçi Geoloqları Cəmiyyəti" İctimai Birliyi ilə birgə keçirdiyimiz "Neft-qaz sənayesinin gələcəyi: yeni üfüqlər" adlı I Konfransdır və biz bu tədbirin təşkilatçılığında göstərdiyiniz böyük dəstəyə görə, sizə dərin minnətdarlığımızı bildiririk.

Bu il Xəzər Universiteti öz 35 illik yubileyini qeyd etmişdir. Azərbaycanın ilk ingilis dilli, beynəlxalq səviyyədə tanınan bu nüfuzlu universitetdə şəxsən mənim də müəllim kimi fəaliyyətim olduğuna görə, qürur hissi keçirirəm. Arzu edirik ki, doğma Xəzər Universitetinin məşəlləri daim ucalsın və tələbələrdən ibarət budaqları sonsuzadək şaxələnsin! Uzun illər Xəzər Universitetinin çıraqları tələbələrinə işıq saçsın!

Hamlet müəllim və siz başda olmaqla, Xəzər Universitetinin bütün kollektivini bu münasibətlə səmimi qəlbdən təbrik edirik! Uğurlarınız davamlı olsun!

**Hörmətlə,**
**"Education and Training Services" MMC-nin təsisçi-direktoru**
**Dr.Elvin Əhmədov**

01-04/2026TS
April 1, 2026

**Rector of Khazar University**
**Dr. Razia Isaeva**

**Dear Razia Khanum,**

The reputation of Khazar University is met with great admiration both within the country and beyond its borders. Khazar University's strong programs in science, education, and social development, its care for students and specialists, and its values are recalled with immense pride by every citizen. It is no coincidence that young people's interest in this University continues to grow. As an organization likewise engaged in education and training, we too take great joy in Khazar University's continued successes and hold the dedication invested in this work in the highest regard. In these achievements, one must undoubtedly acknowledge the irreplaceable role of distinguished scholar and professor, Hamlet Isakhanli.

"Education and Training Services" LLC was established in 2023. The primary mission of the LLC is the training of highly qualified specialists and their development for broad participation in the modern labor market. "ETS" LLC delivers training programs, mentorship initiatives, employment preparation, and consultancy services covering the oil and gas sector, alternative energy, management, self-development models, and support for scientific work. Our organization has been actively operating since its inception and has organized a considerable number of events during this period. One such event is the 1st Conference titled "The Future of the Oil and Gas Industry: New Horizons," held jointly with Khazar University and the Public Association of the Society of Petroleum Geologists, and we extend our sincere gratitude to you for the invaluable support rendered in organizing this event.

This year, Khazar University has celebrated its 35th anniversary. I take personal pride in having served as a faculty member at this prestigious university — Azerbaijan's first English-language institution of higher education with international recognition. We wish that the torch of our beloved Khazar University may forever burn bright, and that its branches, composed of its students, may extend endlessly! May the lights of Khazar University illuminate its students for many years to come!

We extend our most heartfelt congratulations to the entire Khazar University community on this occasion, with you and Mr.Isakhanli at the forefront! May your successes endure!

**Respectfully,**
**Founder-Director of "Education and Training Services" LLC**
**Dr. Elvin Ahmadov**

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ QAZANILMIŞ QRANT MÜZAKİRƏ OLUNUB



## INTERNATIONAL COOPERATION AND AWARDED GRANT DISCUSSED

Xəzər Universitetində Drought Prevention Institute`un direktoru Laszlo Orlos və Macarıstanın Azərbaycandakı səfirliyinin attaşesi Daniel Brenner ilə aprelin 1-də görüş keçirilib. Görüşün məqsədi qazanılmış qrant çərçivəsində universitetin elmi-tədqiqat fəaliyyəti və Environmental Research Center`in fəaliyyəti ilə daha yaxından tanışlıq olub.

Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, dekanlar, fakültə üzvləri, Environmental Research Center`in tədqiqatçıları iştirak edib, layihələri haqqında və tədqiqat mərkəzinin gələcəkdə planlaşdırılan fəaliyyəti barədə məlumat veriblər. Tərəflər arasında səmimi və məhsuldar müzakirələr aparılıb, qarşılıqlı əməkdaşlıq imkanları geniş şəkildə nəzərdən keçirilib.

Qazanılmış qrantın icra mexanizmləri, gözlənilən nəticələr və layihənin gələcək perspektivləri ətraflı şəkildə müzakirə olunub. Macarıstanın aparıcı universitetləri ilə əməkdaşlığın genişləndirilməsi, xüsusilə, ikili diplom proqramlarının yaradılması, tələbə və müəllim mübadiləsinin təşkili kimi mühüm məsələlər də diqqət mərkəzində olub.

Tərəflər, həmçinin, elmi-tədqiqat sahəsində birgə layihələrin həyata keçirilməsi, innovativ yanaşmaların tətbiqi və beynəlxalq təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıblar. Bu istiqamətdə gələcəkdə daha sıx əməkdaşlığın qurulması və konkret addımların atılması ilə bağlı ilkin razılıqlar əldə edilib.

Xəzər Universitetinin beynəlxalq əlaqələrinin genişləndirilməsi və qlobal akademik şəbəkədə mövqeyinin gücləndirilməsi baxımından görüşün mühüm əhəmiyyət kəsb etdiyi bildirilib.

A meeting was held on April 1, 2026, at Khazar with Laszlo Orlos, Director of the Drought Prevention Institute, and Daniel Brenner, attaché of the Hungarian Embassy in Azerbaijan. The purpose of the meeting was to gain a closer acquaintance with the university's research activities and the work of the Environmental Research Center within the awarded grant.

The meeting was attended by the Founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, deans, faculty members, and researchers of the Environmental Research Center, who provided information about their projects and the future planned activities of the research center. Candid and productive discussions were held between the parties, and mutual cooperation opportunities were thoroughly reviewed.

The implementation mechanisms of the awarded grant, expected outcomes, and future prospects of the project were discussed in detail. Expanding cooperation with leading Hungarian universities - particularly the establishment of dual degree programs and the organization of student and faculty exchanges - were also among the key issues on the agenda.

The parties also emphasized the importance of implementing joint research projects, applying innovative approaches, and exchanging international experience. Preliminary agreements were reached regarding the establishment of closer cooperation and the taking of concrete steps in this direction.

It was noted that the meeting is of significant importance in terms of expanding Khazar's international relations and strengthening its position within the global academic network.

# “ÖMÜR YOLU YOL DEYİL Kİ ...”
# "LIFE'S JOURNEY IS NOT JUST A ROAD..."

Xəzər Universitetinin Mərmər zalında aprelin 2-də universitetin təmir, tikinti işləri üzrə meneceri Şahin İsayevin 60 illik yu-



*Hamlet İsaxanlı*

bileyinə həsr olunmuş “Ömür yolu yol deyil ki...” adlı tədbir keçirilib. Tədbir Musiqi və incəsənət departamentinin müdiri, Əməkdar müəllim Zülfiyyə



*Raziyə İsayeva*

Sadıqovanın pianoda müşayiətilə solist Nurlan Gəncəlinin ifasında Xalq artisti Fikrət Əmirovun “Məhəbbət rəqsi” əsəri ilə başlanıb. Sonra Şahin İsayevin

An event titled "Life's Journey Is Not Just a Road..." dedicated to the 60th anniversary of Shahin Isayev, Construction and Reno-



*Şahin İsayev*

vation Manager at Khazar University, was held on April 2, in the Marble Hall of Khazar University. The event opened with "Love Dance" by People's Artist Fikrat Amirov, performed by soloist Nurlan Ganjali,



*Əlövsət Əmirbəyli*

ömür yoluna aid foto-video materiallar təqdim olunub.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı Şahin İsayev haqqında xatirələrini danışıb. Bildirib ki, biz qardaşların yaşca ən kiçiyi Şahin olmasına baxmayaraq, elə uşaqlıq illərindən xarakteri, fəhmi, çalışqanlığı ilə seçilib, şahmata, futbola, ümumilikdə, idmana bağlılığı gələcək həyatında mühüm rol oynayıb. H. İsaxanlı Şahin İsayevin gənclik və tələbəlik illərindən də söz açaraq, onun Xəzər Universiteti ilə bağlılığını, bir mühəndis kimi universitetin inkişafındakı xidmətlərini, bu yolda əzmlə çalışdığını xüsusi qeyd edib. Yubileyi münasibətilə Ş. İsayevə xoş arzularını bildirən H. İsaxanlı bundan sonra da onun uğurlarına əmin olduğunu deyib.

Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva Şahin İsayevin yüksək insani keyfiyyətlərindən, səmimiyyətilə universitet kollektivinin rəğbətini qazanmasından söz açaraq, bildirib ki, bu amillər uğurların qazanılmasında mühüm rol oynayır. Dr. R. İsayeva qeyd edib ki, universitetin kampuslarının tikintisində, eləcə də digər mühüm işlərdə  Şahin İsayevin böyük əməyi var.



*Məhəmməd Nuriyev*



Xəzər Universitetinin akademik işlər üzrə prorektoru Prof. Məhəmməd Nuriyev, universitet əməkdaşlarından Əlövsət Əmirbəyli, Piri Piriyev Ş. İsayevlə bağlı xatirələrini danışıb, xoş arzularını bildiriblər.

Musiqi və incəsənət departamentinin müəllimləri aşıq Ramin Qarayev,  Məhsəti Cabbarova və rəqqasə Tahirə Bayramova təbriklərini öz ifaları ilə çatdırıblar.

(*Ardı səh.16-da*)

accompanied on piano by Zulfiyya Sadiqova, Head of the Music and Fine Arts Department and Honored Teacher. A photo and video presentation chronicling the life journey of Shahin Isayev was then shown.

The Founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, shared his personal recollections of Shahin Isayev. He noted that although Shahin is the youngest among the brothers, he distinguished himself from childhood through his character, intellect, and diligence, and that his dedication to chess, football, and

(*To be continued page 16*)

Şahin İsayev 60 illik yubileyi münasibətilə keçirilən tədbirin təşkilatçılarına təşəkkür edib, bundan sonra da universitetin uğurları naminə əzmlə çalışacağını bildirib.

Tədbirin sonunda Prof.Akad. H. İsaxanlı və Dr. Raziyə İsayeva Şahin İsayevə xatirə hədiyyələri təqdim ediblər.



*Məhsəti Cabbarova, Ramin Qarayev*



*Piri Piriyev*

sports in general played an important role in shaping his future life. H. Isakhanli also spoke about Shahin Isayev's youth and student years, highlighting his long-standing connection with Khazar University, his contributions to the university's development as an engineer, and his steadfast commitment to that endeavor. Conveying his best wishes on the occasion of the jubilee, H. Isakhanli expressed his confidence in Isayev's continued success.



Khazar University Rector Dr. Razia Isaeva spoke of Shahin Isayev's outstanding personal qualities and the affection he has earned from the university community through his sincerity, noting that these qualities play a vital role in achieving success. Dr. Isaeva emphasized that Shahin Isayev has made a significant contribution to the construction of the university's campuses as well as to other important undertakings.

Khazar Vice-Rector for Academic Affairs Prof. Muhammad Nuriyev, along with university staff members Alovsat Amirbayli and Piri Piriyev, shared their memories of Shahin Isayev and extended their warm wishes.

Faculty members of the Music and Fine Arts Department - ashug Ramin Garayev, Mahsati Jabbarova, and dancer Tahira Bayramova - conveyed their congratulations through their performances.

Shahin Isayev expressed his gratitude to the organizers of the event held in honor of his 60th jubilee and pledged to continue working with dedication for the advancement of the university.

At the conclusion of the event, Prof. Acad. Isakhanli and Dr. Isaeva presented commemorative gifts to Shahin Isayev.

## PROF.AKAD. HAMLET İSAXANLI ADA UNİVERSİTETİNDƏ KİTAB TƏQDİMATINDA

## PROF. ACAD. HAMLET ISAKHANLI AT BOOK PRESENTATION AT ADA UNIVERSITY

Prof.Akad. Hamlet İsaxanlı və Xəzər Universitetinin əməkdaşları aprelin 10-da ADA Universitetində keçirilən “Exploring Intersections between Nizami and Dante” (“Nizami və Dante: kəsişmələrin araşdırılması”) kitabının təqdimat mərasimində iştirak ediblər. Tədbir “ADA-nın ədəbiyyat söhbətləri” layihəsi çərçivəsində reallaşıb. Prof.Akad. Hamlet İsaxanlı kitabın “Nizami`s Philosophy of History” adlı 19-cu bölümünün müəllifidir.

Prof. Rəhilə Qeybullayevanın moderatorluğu ilə keçirilən görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı məruzə ilə çıxış edib. H. İsaxanlı çıxışında Şərq və Qərb ədəbi düşüncəsinin görkəmli nümayəndələrinin yaradıcılığı arasında aparılan müqayisəli tədqiqatların yalnız ədəbiyyatşünaslıq baxımından deyil, həm də mədəniyyətlərarası dialoqun inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb. O, Nizaminin “Xəmsə”sində məkan və zaman konsepsiyalarını şərh edərək, İsgəndər obrazına xüsusi diqqət yetirib. Qeyd edilib ki, Nizaminin “İsgəndərnamə” əsəri dünya tarixi, dünya coğrafiyası və ideal hökmdar konsepsiyalarını əhatə edən geniş məzmunlu bədii-fəlsəfi mətn kimi səciyyələnir. Şair burada məqsədli anaxronizmlərdən istifadə edərək, İsgəndər obrazını real tarixi sərhədlərdən kənarda, ümumbəşəri idealın təcəssümü kimi təqdim edir. Həmçinin, vurğulanıb ki, Nizami İsgəndəri yeddi yunan filosofu ilə fəlsəfi söhbətlər aparan dünya hökmdarı kimi təsvir edir. Bu yaradıcı yanaşma Dante yaradıcılığı ilə müqayisə edilərək, orta əsrlərdə tarixi yaddaşın formalaşması ilə bağlı yeni elmi baxışların ortaya çıxmasına imkan yaradır.

Görüşə, iştirak edən qonaqlarla yanaşı, İtaliyadan onlayn bağlantı vasitəsilə bir neçə mütəxəssis də qatılıb. Eyni zamanda, Qarabağ Universitetinin kafedra müdiri, dosent Əzizağa Nəcəfov da tədbirdə iştirak edib.

Tədbirin son sual-cavab hissəsində iştirakçılar aktiv şəkildə mövzu ilə bağlı fikirlərini bölüşüb, kitabın Azərbaycan və beynəlxalq akademik mühit üçün əhəmiyyətini vurğulayıblar. Bu cür görüşlərin davamlı keçirilməsinin ədəbi irsin daha dərindən öyrənilməsinə və gənc tədqiqatçıların elmi maraqlarının artmasına xidmət etdiyi qeyd olunub.

Prof. Acad. Hamlet Isakhanli and Khazar University faculty members attended the book presentation ceremony of "Exploring Intersections between Nizami and Dante" held at ADA University on April 10. The event took place within the framework of the "ADA Literary Conversations" project. Prof. Acad. Hamlet Isakhanli is the author of Chapter 19 of the book, titled "Nizami's Philosophy of History."

At the meeting, moderated by Prof. Rahila Geybullayeva, Hamlet Isakhanli - founder of Khazar University and Chairman of the Board of Directors and Trustees - delivered a presentation. In his address, he emphasized that comparative studies between prominent representatives of Eastern and Western literary thought are of significant importance not only from a literary perspective, but also for the development of intercultural dialogue. He elaborated on the concepts of space and time in Nizami's Khamsa, with particular focus on the figure of Alexander. It was noted that Nizami's Iskandarname is characterized as a broad literary-philosophical text encompassing concepts of world history, world geography, and the ideal ruler. Through deliberate use of anachronism, the poet presents Alexander beyond real historical boundaries, as the embodiment of a universal ideal. It was further highlighted that Nizami depicts Alexander as a world ruler engaged in philosophical dialogues with seven Greek philosophers. This creative approach, compared with Dante's work, opens the way for new scholarly perspectives on the formation of historical memory in the Middle Ages.

In addition to the guests present at the venue, several specialists from Italy joined the meeting online. Associate Professor Azizaga Najafov, Head of Department at Karabakh University, also participated in the event.

During the closing Q&A session, participants actively shared their views on the topic and underscored the significance of the book for both Azerbaijani and international academic communities. It was noted that the continued organization of such events serves to deepen the study of literary heritage and to foster the academic interest of young researchers.

# XƏZƏR UNİVERSİTETİNİN TƏDRİS İŞLƏRİ ÜZRƏ PROREKTORU PROFESSOR MƏHƏMMƏD NURİYEVƏ TƏBRİK MƏKTUBU

# A CONGRATULATORY LETTER TO PROFESSOR MAHAMMAD NURIYEV, VICE-RECTOR FOR ACADEMIC AFFAIRS AT KHAZAR UNIVERSITY

**Əzizimiz Məhəmməd müəllim,**

Sizi 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Sizin Xəzər Universitetinin ilk günlərindən etibarən göstərdiyiniz fədakar fəaliyyət, prinsipiallığınız və yüksək peşəkarlığınız universitetimizin formalaşmasında və inkişafında mühüm rol oynamışdır. Siz alim və uğurlu rəhbər olmaqla yanaşı, həm də bir neçə nəsil tələbə və həmkar üçün əsl müəllim və yol göstərən olmusunuz. Mənim də peşəkar və şəxsi həyatımda sizin mühüm rolunuz və əməyiniz olmuşdur.

Sizin tələbkarlığınız, intellektual dəqiqliyiniz və keyfiyyətə sadiqliyiniz Xəzər Universitetinin akademik mühitinin ayrılmaz hissəsinə çevrilmişdir. Bu gün universitetimizin qazandığı nüfuzda Sizin uzun illər ərzində göstərdiyiniz xidmətinizin xüsusi yeri vardır.

Bu əlamətdar gündə Sizə möhkəm can sağlığı, uzun ömür, yeni uğurlar və elmi-pedaqoji fəaliyyətinizdə davamlı nailiyyətlər arzulayıram.

**Dərin hörmətlə,**
**Raziyə**

**Dear Professor Nuriyev,**

Please accept my heartfelt congratulations on the occasion of your 80th anniversary.

Your devoted service to Khazar University since its very foundation, your academic integrity, and your outstanding professionalism have played a pivotal role in shaping and advancing our institution. Along with your scholarly activities and leadererership for continuos decades, you also have been a true teacher and mentor to generations of students and colleagues. You have also had an important role and contribution in both my professional and personal life

Your intellectual rigor, high standards, and unwavering commitment to quality have become an integral part of the academic culture of Khazar University. The reputation and achievements of our university today bear the strong imprint of your lifelong contributions.

On this remarkable occasion, I wish you strong health, long life, continued success, and further accomplishments in your academic and scholarly endeavors.

**With regards,**
**Razia**

## "XƏZƏR"DƏ YUBİLEY TƏDBİRİ

Aprelin 10-da Xəzər Universitetinin Mərmər zalında universitetin tədris işləri üzrə prorektoru Prof. Məhəmməd



*Hamlet İsaxanlı*

Nuriyevin 80 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbir çərçivəsində Musiqi və incəsənət departamentinin müdiri, Əməkdar müəllim Zülfiyyə Sadıqovanın pianoda müşayiətilə Musiqi və incəsənət departamentinin müəllimi, vokalist Məhsəti Cab-



*Raziyə İsayeva*

(*Ardı səh.20-də*)

## JUBILEE EVENT AT KHAZAR UNIVERSITY

On April 10, a ceremony dedicated to the 80th anniversary of Prof. Mahammad Nuriyev, Vice-Rector for Academic Affairs at Khazar University, was held in the Marble Hall of Khazar University. As part of the event, performances




*Rafiq Əliyev*

were presented by Mahsati Jabbarova, a vocalist and instructor at the Department of Music and Fine Arts, accompanied on piano by Zulfiyya Sadiqova, Head of the Department of Music and Fine Arts and Honored Teacher; by the Trio ensemble of Khazar University's Chamber Orchestra; and by tar player Vagif



*Kəmalə Əsgərova, Firəngiz Nəsirov*

(*To be continued page 20*)




*Xumar Hüseynova, Məhəmməd Nuriyev*

Tahmazov. Photo and video materials tracing the life journey of Prof. Mahammad Nuriyev were also presented.

Prof.Acad Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, shared his personal recollections of Prof. Mohammad Nuriyev. He noted that Mahammad Nuriyev had played a significant role in shaping and developing the university through his dedication, principled approach, and high level of professionalism.

Dr. Razia Isaeva, Rector of Khazar University, highlighted Mahammad Nuriyev's exceptional contributions to the university's reputation both domestically and internationally, and emphasized his significant role and efforts in the professional and personal lives of students.

barovanın, "Xəzər"in Kamera orkestrinin Trio qrupunun, tarzən Vaqif Təhməzovun ifaları dinlənilib, Prof. Məhəmməd Nuriyevin ömür yoluna aid foto-video materiallar təqdim olunub.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad Hamlet İsaxanlı Prof. Məhəmməd Nuriyev haqqında xatirələrini danışıb. Bildirib ki, Məhəmməd Nuriyev Xəzər Universitetində göstərdiyi fəaliyyəti, prinsipiallığı və yüksək peşəkarlığı ilə bu təhsil ocağının formalaşmasında və inkişafında mühüm rol oynayıb.



*Lətafət Qardaşova, Fərid Ağayev*



*Əziz Nuriyev*

Prof. Rafig Aliyev, Doctor of Technical Sciences, Corresponding Member of ANAS, and Director of International Bachelor's Programs at ASOIU, spoke about Mahammad Nuriyev's student years, his academic and pedagogical career at ASOIU, and his outstanding contributions as a specialist.

Assoc. Prof. Farid Agayev, Dean of the Faculty of Information Technologies and Management at ASOIU, and Prof. Latafat Gardashova, Doctor of Technical Sciences and Professor at ASOIU, shared their memories of Mohammad Nuriyev and conveyed their warm wishes.

Khumar Huseynova, Head of the Education and Development Department at Access Bank, a graduate of Khazar and instructor at the Faculty of Economics and Management, spoke about the significant role Prof. Mahammad Nuriyev had played during her studies at the university and expressed her gratitude for his support throughout her academic and pedagogical career.

A choir ensemble composed of Khazar's administrative and managerial staff congratulated Mahammad Nuriyev with their performances and extended their warm wishes to him.

Other speakers, as well as Aziz Nuriyev congradulated on the occassion of jubilee and wished best of health and success.

At the conclusion of the event, Prof. Acad. Isakhanli and Dr. Isaeva presented Prof. Mahammad Nuriyev commemorative gifts.



Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva Məhəmməd Nuriyevin universitetin həm ölkədaxili, həm də beynəlxalq nüfuzunda müstəsna xidmətlərinə toxunub, tələbələrin peşəkar və şəxsi həyatlarında mühüm rolu və əməyi olduğunu vurğulayıb.

Texnika elmləri doktoru, AMEA-nın müxbir üzvü, ADNSU-nun Beynəlxalq bakalavr (BA) proqramlarının direktoru Prof. Rafiq Əliyev Məhəmməd Nuriyevin tələbəlik illərindən, ADNSU-da elmi-pedaqoji fəaliyyətindən və onun bir mütəxəssis kimi göstərdiyi böyük xidmətlərindən bəhs edib.

ADNSU-nun İnformasiya texnologiyaları və idarəetmə fakültəsinin dekanı, Dos. Fərid Ağayev, t.e.d., ADNSU-nun professoru Lətafət Qardaşova Məhəmməd Nuriyevlə bağlı xatirələrini danışıb, xoş arzularını bildiriblər.

Access Bankın Təhsil və inkişaf şöbəsinin rəhbəri, Xəzər Universitetin məzunu və İqtisadiyyat və menecment fakültəsinin müəllimi Xumar Hüseynova universitetdə təhsil alarkən Prof. Məhəmməd Nuriyevin böyük rolu olmasına toxunub, elmi-pedaqoji fəaliyyətində göstərdiyi dəstəkdən danışıb.

“Xəzər”in idarəetmə və inzibati heyətindən ibarət xor qrupu ifaları ilə Məhəmməd Nuriyevi təbrik edib, ona xoş arzularını çatdırıblar.

Digər çıxış edənlər, o cümlədən, oğlu Əziz Nuriyev də yubiliyarı təbrik edib, can sağlığı, uğurlar arzulayıblar.

Tədbirin sonunda Prof.Akad. H. İsaxanlı və Dr. R. İsayeva Prof. Məhəmməd Nuriyevə xatirə hədiyyəsi təqdim ediblər.



## "UĞURUN ŞORBASI: ƏMƏKDAŞLAR ÜÇÜN "PEŞƏ ETİKASI VƏ TƏŞKİLATİ DAVRANIŞ" MÖVZUSUNDA TƏLİM






*Xumar Hüseynova*

## "THE SOUP OF SUCCESS": TRAINING ON "PROFESSIONAL ETHICS AND ORGANIZATIONAL BEHAVIOR" FOR STAFF

Fevralın 12-də Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzi və İqtisadiyyat və menecment fakültəsinin birgə təşkilatçılığı ilə universitet əməkdaşları üçün "Peşə etikası və təşkilati davranış" mövzusunda təlim keçirilmişdir.

Təlim məşhur motivasiya müəllifi Jon Gordon`un "Soup" ("Şorba") kitabı əsasında hazırlanmış proqram üzrə təşkil olunmuşdur. Sessiya çərçivəsində təşkilati mədəniyyətin əsas "inqrediyentləri" – müsbət yanaşma, ortaq dəyərlər, sağlam münasibətlər, liderlik nümunəsi və fərdi məsuliyyət anlayışı geniş müzakirə edilib.

Təlimin açılışında Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva çıxış edərək, təlimin məqsəd və əhəmiyyətindən bəhs edib

Access Bankın Təhsil və inkişaf şöbəsinin rəhbəri, təlimçi Xumar Hüseynovanın Xəzər Universitetinin uzun illərdir əməkdaşı, həmçinin Xəzər Universitetinin məzunu olması tədbirə xüsusi dəyər qatıb. O, çıxışı zamanı öz tələbəlik və peşəkar fəaliyyət təcrübəsinə istinad edərək, universitet mühitini daha yaxından tanıdığını vurğulayıb. Təlimçi mövzuları yalnız nəzəri çərçivədə deyil, həm də Xəzər Universitetində baş vermiş real hadisələr və iş təcrübələri əsasında izah edib. Bu yanaşma iştirakçıların mövzunu daha dərindən qavramasına və müzakirələrə daha fəal qoşulmasına şərait yaradıb.

İnteraktiv formatda keçirilən təlimdə iştirakçılar

On February 12, a training session on "Professional Ethics and Organizational Behavior" was held for Khazar staff, jointly organized by the Career and Alumni Center and the School of Economics and Management.

The training was conducted based on a program developed around the book "Soup" by renowned motivational author Jon Gordon. During the session, the key "ingredients" of organizational culture - a positive attitude, shared values, healthy relationships, leadership by example, and individual accountability - were discussed in depth.

The training was opened by Zarifa Aliyeva, Director of the CAC, who spoke about the objectives and significance of the event.

The fact that Khumar Huseynova, Head of the Training and Development Department at Access Bank and the session's trainer, is a long-standing associate and alumna of Khazar lent special value to the event. In her address, she stressed that years as a student and her experience give her a close familiarity with the university environment. She explained the topics not only on a theoretical framework, but also through real events and work experiences from Khazar. This approach enabled participants to gain an understanding of the subject matter and engage more actively in discussions.

Conducted in an interactive format, the training provided participants with an opportunity to exc-

komanda daxilində enerjinin ümumi nəticələrə təsiri, münasibətlərin iş keyfiyyətinə təsiri və problemlərə həll yönümlü yanaşmanın əhəmiyyəti barədə fikir mübadiləsi aparıblar. Vurğulanıb ki, hər bir əməkdaşın davranışı və yanaşması bütövlükdə təşkilati mühitin formalaşmasında həlledici rol oynayır. "Şikayətlə deyil, həll ilə gəlmək", "öz davranışınla nümunə olmaq" və "davamlı inkişafı şəxsi məsuliyyət kimi qəbul etmək" kimi əsas mesajlar təlimin mərkəzi xəttini təşkil edib.

Sessiya zamanı real situasiyalar üzərində qrup işi və müzakirələr təşkil olunub. İştirakçılar peşə etikası və təşkilati davranış mövzusunda yeni baxış bucaqları qazandıqlarını və komanda daxilində daha sağlam iş mühiti formalaşdırmaq üçün konkret addımlar müəyyənləşdirdiklərini bildiriblər.

Bu təşəbbüs universitet daxilində peşəkar əməkdaşlıq mədəniyyətinin gücləndirilməsi, dəyərlərə əsaslanan idarəetmə yanaşmasının təşviqi və məzun - universitet əlaqələrinin möhkəmləndirilməsi baxımından əhəmiyyətli addım kimi qiymətləndirilib.

Təlimin sonunda isə ən vacib məqam vurğulanıb: təşkilati mədəniyyət sənədlərlə deyil, insanlarla formalaşır, hər bir əməkdaş öz davranışı, enerjisi və yanaşması ilə universitetin ümumi atmosferinə təsir göstərir.

hange views on the impact of energy within a team on overall outcomes, the effect of interpersonal relationships on work quality, and the importance of a solution-oriented approach to challenges. It was underscored that the behavior and attitude of each staff member plays a decisive role in shaping the overall organizational environment. Key messages such as "come with a solution, not a complaint," "lead by example through your own conduct," and "embrace continuous development as a personal responsibility" formed the central thread of the training.

Group work and discussions on real-life scenarios were organized during the session. Participants noted that they gained new perspectives on professional ethics and organizational behavior, and identified concrete steps toward fostering a healthier work environment within their teams.

This initiative was recognized as a significant step toward strengthening a culture of professional collaboration within the university, promoting a values-based management approach, and reinforcing alumni–university ties.

At the close of the training, the most important point was emphasized: organizational culture is shaped not by documents, but by people - and every staff member, through their conduct, energy, and attitude, influences the overall atmosphere of the university.

## İŞTİRAKÇILAR ARASINDA "XƏZƏR"İN TƏLƏBƏLƏRİ DƏ VAR

Azərbaycan 77-ci Beynəlxalq Astronavtika Konqresi (IAC 2026) çərçivəsində təqdim olunan tələbə elmi məqalələrinin sayına görə, 814 məqalə ilə 108 ölkə arasında dünyada 2-ci yeri tutur. Bu göstərici ötən illə müqayisədə 29 faiz artım deməkdir.

2026-cı il üzrə Azərbaycandan konqresə elmi məqalə göndərən tələbələrin təmsil olunduğu universitetlər arasında Xəzər Universiteti də var. Qeyd etmək lazımdır ki, konqresə tələbələrin göndərdiyi elmi işlər kosmik sənayenin geniş spektrini əhatə edir.

77-ci Beynəlxalq Astronavtika Konqresi 2026-cı il oktyabrın 5-9-da Türkiyənin Antalya şəhərində keçiriləcək.

Xəbəri bir çox sayt yayımlayıb.




## KHAZAR STUDENTS AMONG PARTICIPANTS

Azerbaijan ranks 2nd in the world among 108 countries in terms of the number of student scientific papers submitted to the 77th International Astronautical Congress (IAC 2026), with 814 papers - representing a 29 per cent increase compared to the previous year.

Khazar University is among the universities whose students have submitted scientific papers to the congress from Azerbaijan for 2026. It is worth noting that the research papers submitted by students cover a broad spectrum of the space industry.

The 77th International Astronautical Congress will be held on October 5–9, 2026, in Antalya, Türkiye.

The news has been published by numerous websites.

*https://faktornews.az/news/economy/929-azerbaycan-iac-2026da-elmi-meqalelerin-sayina-gore-yeni-rekorda-imza-atib*

# TƏLƏBƏLƏR ÜÇÜN MƏLUMAT SESSİYASI
# INFORMATION SESSION FOR STUDENTS

Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsi fevralın 17-də Mərmər zalda məlumat sessiyaları təşkil edib. Şöbə əməkdaşlarının çıxış etdikləri sessiyada bütün fakültələrdən yerli və beynəlxalq tələbələr, həmçinin fakültə koordinatorları iştirak ediblər. Sessiyanın əsas məqsədi şöbə əməkdaşları tərəfindən tələbələri Azərbaycan Respublikasında təhsil və yaşayışları ilə bağlı mühüm inzibati, miqrasiya və təhlükəsizlik məsələləri, həmçinin, mübadilə proqramları barədə məlumatlandırmaq idi.

Birinci sessiya universitet haqqında ətraflı təqdimatla başlayıb. İştirakçılara Xəzər Universiteti, onun missiyası və akademik mühiti, universitetdə fəaliyyət göstərən fakültələr, tədqiqat mərkəzləri, laboratoriyalar və digər akademik bölmələr, həmçinin kampus imkanları, yataqxana, tələbə xidmətləri və mövcud infrastruktur haqqında ətraflı məlumat verilib.

Beynəlxalq əlaqələr şöbösinin roluna, yerli və beynəlxalq tələbələrə göstərdiyi dəstək xidmətlərinə xüsusi diqqət yönəldilib, o cümlədən sənədləşdirmə üzrə məsləhət, mobillik imkanları və inzibati dəstək barədə məlumatlar təqdim edilib. Bundan əlavə, universitetə qəbul prosedurları izah olunub, tələb olunan sənədlər, ərizə mərhələləri və uyğunluq meyarları qeyd olunub.

Sessiyanın ikinci hissəsində miqrasiya prosedurları haqqında qaydalar nəzərə çatdırılıb. Buraya qeydiyyat tələbləri, müvəqqəti yaşayış icazələri, viza ilə bağlı məsələlər, uzatma və dəyişiklik prosedurları, tələb olunan sənədlər, son tarixlər və tələbələrin öhdəlikləri daxildir. İştirakçılar, həmçinin, yaşadıqları yerdə qeydiyyat və müvafiq qaydalar, o cümlədən Təhsil Sek-






*Fidan Cəfərova*

Khazar University's International Relations Office organized information sessions on February 17, in the Marble Hall. The session was attended by local and international students from all faculties, as well as faculty coordinators and department staff. The main purpose of the session was for office staff to inform students on key administrative, immigration and security matters related to their studies and residence in the Republic of Azerbaijan, as well as on exchange programs.

The first session opened with a detailed presentation about the university. Participants were provided with comprehensive information about Khazar, its mission and academic environment, the faculties operating within the university, research centers, laboratories and other academic units, as well as campus facilities, dormitories, student services and available infrastructure.

Special attention was devoted to the role of the International Relations Office and the support services it provides to local and international students, including guidance on documentation, mobility opportunities and administrative support. In addition, university admission procedures were explained, covering required documents, application stages and eligibility criteria.

The second part of the session addressed regulations regarding migration procedures. These included registration requirements, temporary residence permits, visa-related matters, extension and amendment procedures, required documents, deadlines and students' obligations. Participants were also informed about residential registration and relevant

torunda Keyfiyyət Təminatı Agentliyi (TKTA) barədə məlumatlandırılıb.

Sonuncu sessiya beynəlxalq mobillik imkanlarına həsr olunub. Erasmus+ mübadilə proqramları, ikitə-




*Seyran Əliyeva*

rəfli əməkdaşlıq müqavilələri və universitetdə mövcud olan ikili diplom, təhsil və təcrübə mobilliyi, tərəfdaş universitetlər, müraciət tələbləri, seçmə meyarları və ümumi mobillik prosesi barədə məlumat təqdim edilib. Sessiya interaktiv sual-cavab bölməsi ilə yekunlaşıb.

Məlumat sessiyası universitet icmasında ünsiyyətin gücləndirilməsi, məlumatlılığın artırılması və şəffaflığın təmin edilməsi üçün vacib platforma rolunu oynayıb.



regulations, including those pertaining to the Agency for Quality Assurance in Education (AQAE).

The final session was dedicated to international mobility opportunities. Information was presented on Erasmus+ exchange programs, bilateral cooperation agreements, and double degree, academic and internship mobility options available at the university, as well as partner universities, application requirements,




selection criteria and the general mobility process. The session concluded with an interactive question-and-answer segment.

The information session served as an important platform for strengthening communication within the university community, raising awareness and ensuring transparency.






## XƏZƏR UNİVERSİTETİNİN REKTORU "IV TUSİ" İNKUBASİYA PROQRAMININ "DEMO DAY" TƏDBİRİNDƏ

Fevralın 19-da Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnnovasiyalar Mərkəzinin "Gələcək üçün bacarıqlar" layihəsinin növbəti mərhələsi olan IV TUSİ inkubasiya proqramı çərçivəsində "Demo Day" tədbiri keçirildi. Tədbirdə Xəzər Universitetini rektor Dr. Raziyə İsayeva təmsil etdi.

Tədbirdə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Elm və Təhsil nazirinin müavini Firudin Qurbanov, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin idarə heyətinin sədri Orxan Məmmədov, BP-nin Xəzər bölgəsində Xarici əlaqələr və kommunikasiya üzrə vitse - prezidenti Bəxtiyar Aslanbəyli, ölkə universitetlərinin rektorları, nazirlik və agentliyin əməkdaşları, mentorlar, inkubasiya proqramı iştirakçıları iştirak etdilər.

"Demo Day" tədbirində inkubasiya proqramı iştirakçıları tərəfindən hazırlanmış innovativ layihələrin təqdimatı keçirildi, eyni zamanda layihənin davamı olaraq "V Tusi" inkubasiya proqramının başlanması elan olundu.

Qeyd edək ki, 2021-ci ilin aprel ayından həyata keçirilən "Gələcək üçün bacarıqlar" layihəsinin məqsədi ali təhsil mərkəzlərində innovativ düşüncənin təşviqi, gənclərin praktik bacarıqlarının inkişafı və innovasiya ekosistemi üçün dayanıqlı kadr potensialını formalaşdırmaqdır.

## RECTOR OF KHAZAR UNIVERSITY AT "DEMO DAY" EVENT OF "IV TUSI" INCUBATION PROGRAM

On February 19, a "Demo Day" event was held as part of the IV TUSI incubation program — the next stage of the "Skills for the Future" project of the Innovation Center of the State Agency for Public Service and Social Innovations under the President of the Republic of Azerbaijan. Khazar University was represented at the event by Rector Dr. Raziya Isayeva.

The event was attended by the Chairman of the State Agency Ulvi Mehdiyev, Deputy Minister of Science and Education Firudin Gurbanov, Chairman of the Board of the Small and Medium Business Development Agency Orkhan Mammadov, Vice President for External Relations and Communications in the Caspian Region at BP Bakhtivar Aslanbeyli, rectors of the country's universities, employees of the ministry and agency, mentors, and incubation program participants.

At the "Demo Day" event, presentations of innovative projects developed by incubation program participants were held, and the launch of the "V TUSI" incubation program was announced as a continuation of the project.

It should be noted that the "Skills for the Future" project, implemented since April 2021, aims to promote innovative thinking at higher education institutions, develop the practical skills of young people, and build a sustainable human resource potential for the innovation ecosystem.

## “CƏLİL İŞIĞI” TAMAŞASININ PREMYERASI

Beynəlxalq Ana Dili Günü münasibətilə fevralın 21-də Xəzər Universitetinin “Dünya” məktəbində “Cəlil işığı” adlı monotamaşanın premyerası olub.

Xəzər Universitetinin qurucusu, Prof.Akad. Hamlet İsaxanlı, rektor Dr. Raziyə İsayeva, “Dünya” məktəbinin direktoru Aygün İsayeva,həmçinin, Qurban Qurbanov, Kamal Yaşar, Xəzər Süleymanlı, Qulu Ağsəs və Qəmər Seyfəddinqızı kimi tanınmış ziyalı və ictimaiyyət nümayəndələri tamaşaya baxıblar.

## PREMIERE OF "THE LIGHT OF JALIL" PERFORMANCE

On February 21, on the occasion of International Mother Language Day, the premiere of a monoperformance titled "The Light of Jalil" was held at Khazar University's "Dunya" school.

Khazar University founder Prof. Acad. Hamlet Isakhanli, rector Dr. Raziya Isayeva, "Dunya" school principal Aygun Isayeva, as well as prominent intellectuals and public figures such as Gurban Gurbanov, Kamal Yashar, Khazar Suleymanlı, Gulu Aghses, and Qamar Seyfaddinqizi attended the performance.



*Hamlet İsaxanlı*

Səhnə əsəri görkəmli yazıçı və maarifçi Cəlil Məmmədquluzadənin zəngin həyat yoluna və ədəbi irsinə həsr edilib. Böyük ədibin ana dilinin saflığı və inkişafı uğrunda apardığı mübarizə, cəmiyyətin maariflənməsi istiqamətində gördüyü işlər və yaşadığı dövrün ictimai-siyasi mühiti obrazlı şəkildə tamaşaçılara çatdırılıb.

Tamaşa məktəbin müəllim və şagirdləri tərəfindən hazırlanıb. Ssenari müəllifi Fidan Məmmədova, rejissor Murad Allahverdi, layihənin təşkilatçısı isə Şükufə İsmayılovadır.

Tamaşadan sonra Səməd Vurğun, Nəbi Xəzri, Mikayıl Müşfiq, Musa Yaqub, Ramiz Rövşən və Hamlet İsaxanlının şeirləri səsləndirilib. Eyni zamanda, Güney Azərbaycandakı soydaşlarımızın ana dilinə bağlılığı və milli-mənəvi dəyərlərə sədaqəti xüsusi qeyd edilib.

The stage production is dedicated to the rich life and literary legacy of the eminent writer and enlightener Jalil Mammadguluzade. The great author's struggle for the purity and development of the mother tongue, his contributions to the enlightenment of society, and the socio-political environment of his era were conveyed to the audience in vivid, figurative form.

The performance was prepared by the school's teachers and students. The script was written by Fidan Mammadova, directed by Murad Allahverdi, and the project was organized by Shukufa Ismayilova.

Following the performance, poems by Samad Vurgun, Nabi Khazri, Mikayil Mushfig, Musa Yaqub, Ramiz Rovshan, and Hamlet Isakhanli were recited. Special mention was also made of our compatriots in South Azerbaijan and their devotion to the mother tongue and fidelity to national and spiritual values.

XƏZƏR UNİVERSİTETİ

KHAZAR UNIVERSITY

35

# “ÖMRÜN HARASINDAYIQ” POEZİYA VƏ MUSİQİ GECƏSİ

# "WHERE ARE WE IN LIFE'S JOURNEY" POETRY AND MUSIC EVENING

Xəzər Universitetinin 35 illik yubiley tədbirləri çərçivəsində Dillər və ədəbiyyatlar, Musiqi və incəsənət departamentlərinin birgə təşkilatçılığı ilə fevralın 25-də “Ömrün harasındayıq”adlı poeziya və musiqi gecəsi keçirilib.

Tədbir Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlının bədii yaradıcılığına həsr olunub.

Gecənin aparıcısı Dillər və ədəbiyyatlar departa-

As part of Khazar University's 35th anniversary celebrations, a poetry and music evening titled "Where Are We in Life's Journey" was held on February 25, jointly organized by the Departments of Languages and Literatures, and Music and Fine Arts.

The event was dedicated to the artistic work of Khazar University's founder and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli.



*Raziyə İsayeva*







*Firəngiz Nəsirova*



*Hamlet İsaxanlı*



*Zülfiyyə Sadıqova*

mentinin müəllimi Dr. Aygül Qurbanova ilk sözü Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayevaya verib. Raziyə İsayeva belə görüşlərin Xəzər kollektivinin bir araya gəlib, səmimi və duyğusal anları bölüşməsi, birlikdə şeir, musiqi, nəğmə dinləməsi üçün əhəmiyyətini xüsusi vurğulayıb.

Xəzər Universitetinin Kamera orkestrinin ifasında Hamlet İsaxanlının şeirlərinə bəstələnmiş “Karvan keçir”, “Fələyin işi”, “Dağlar darda qalıbdır” kimi mahnılar oxunub. Dillər və ədəbiyyatlar departamentinin əməkdaşları - Mədinə Karahan, Gülşanə Xuduyeva, İlkiyyə Hacıyeva tərəfindən müəllifin “Zaman”, “Deyirdim ki...”, “Ya sən ya heç” və “Çiçəkli çəmən”şeirləri səsləndirilib.

Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Dr.Milana Abbasova isə “Küçələrə su səpmişəm” xalq mahnısını ifa edib.

(*Ardı səh.30-da*)

The evening's host, Dr. Aygul Gurbanova, a lecturer at the Department of Languages and Literatures, opened the floor to Rector Dr. Razia Isaeva. Raziya Isayeva emphasized the significance of such gatherings for the Khazar community to come together, share sincere and heartfelt moments, and enjoy poetry, music, and song.

Performed by Khazar University's Chamber Orchestra, songs set to Hamlet Isakhanli's poems - including "The Caravan Passes," "The Ways of Fate," and "The Mountains Are in Distress" -were presented. Members of the Department of Languages and Literatures - Madina Karahan, Gulshane Khuduyeva, Ilkiyye Hajiyeva - recited the author's poems

(*To be continued page 30*)



*Mədinə Karahan*




*Dilbər Zeynalova, Ramin Qarayev*

İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Firəngiz Nəsirova Hamlet İsaxanlının ingilis və rus dillərində yazılmış şeirlərindən etdiyi tərcümələrdən parçalar səsləndirib. Sonda Prof.Akad. Hamlet İsaxanlı tədbirin təşkilatçılarına təşəkkürünü bildirib.



*Məhsəti Cabbarova*

"Time," "I Used to Say...," "Either You or No One," and "Flowery Meadow."

Dr. Milana Abbasova, Dean of the School of Humanities, Education and Social Sciences, performed the folk song "I Have Sprinkled Water on the Streets."

Firangiz Nasirova, a lecturer at the Department of English Language and Literature, delivered excerpts from her translations of Isakhanli's poems originally written in English and Russian. At the end of the event, Prof. Acad. Hamlet Isakhanli expressed his gratitude to the organizers.



*Gülşanə Xudiyeva*



*İlkiyyə Hacıyeva*

## "XƏZƏR" İN MÜƏLLİMİNİN YENİ KİTABI




Xəzər Universitetinin Kimya və kimya mühəndisliyi departamentinin müəllimi, Dos. Ülviyyə Yolçuyevanın "UB-, IQ-və NMR-spektroskopiya metodlarının nəzəri əsasları və bu metodların kimyəvi birləşmələrin tədqiqində tətbiqi" adlı tədris-metodiki vəsaiti çap olunub ( Nəşr: Bakı, 2025).

Müasir kimya elminin aparıcı istiqamətlərindən biri olan spektroskopiya maddələrin molekulyar quruluşunun müəyyənləşdirilməsi, kimyəvi proseslərin mexanizmlərinin izahı və analitik tədqiqatların aparılmasında mühüm rol oynayır. Nəşrdə ultrabənövşəyi (UB), infraqırmızı (IQ) və nüvə maqnit rezonansı (NMR) spektroskopiyası metodlarının nəzəri əsasları, istifadə olunan cihazları, eksperimental yanaşmaları və tətbiqi metodologiyası sistemli şəkildə oxucuya çatdırılır.

Müəllifin spektroskopiyanın müasir inkişaf tendensiyalarını əks etdirən yeni kitabından analitik kimya, materialşünaslıq, neft-kimya və əlaqəli elmi istiqamətlər üzrə tədqiqatların aparılmasında istifadə oluna bilər.

## NEW BOOK BY KHAZAR'S TEACHER

A teaching and methodological guide titled "Theoretical Foundations of UV, IR and NMR Spectroscopy Methods and Their Application in the Study of Chemical Compounds" by Assoc. Prof. Ulviyya Yolchuyeva, faculty member of the Department of Chemistry and Chemical Engineering at Khazar University, has been published. (Publisher: Baku, 2025)

Spectroscopy, one of the leading fields of modern chemical science, plays an important role in determining the molecular structure of substances, explaining the mechanisms of chemical processes, and conducting analytical research. The publication systematically presents to the reader the theoretical foundations of ultraviolet (UV), infrared (IR) and nuclear magnetic resonance (NMR) spectroscopy methods, the instruments used, experimental approaches, and applied methodology.

The author's new book, reflecting current development trends in spectroscopy, can be used in conducting research in analytical chemistry, materials science, petrochemistry, and related scientific fields.

# XƏZƏR UNİVERSİTETİ İLƏ AZERBAIJAN POULTRY COMPANY VƏ AZERBAIJAN FISH FARM ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANIB




*Raziyə İsayeva, Kənan Məmmədli*

# MEMORANDUM OF UNDERSTANDING SIGNED BETWEEN KHAZAR UNIVERSITY AND AZERBAIJAN POULTRY COMPANY AND AZERBAIJAN FISH FARM

Xəzər Universitetində universitet ilə Azerbaijan Poultry Company və Azerbaijan Fish Farm şirkətləri arasında fevralın 25-də təhsil - sənaye əməkdaşlığına dair Anlaşma memorandumu imzalanıb. Sənəd ali təhsil ilə real istehsalat mühitinin inteqrasiyasını gücləndirmək, tətbiqi elmin inkişafını sürətləndirmək və yüksəkixtisaslı kadr hazırlığını təmin etmək məqsədi daşıyır.

İmzalanma mərasimində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Prof.Akad. Hamlet İsaxanlı, universitetin rektoru Dr. Raziyə İsayeva, Azerbaijan Poultry Company və Azerbaijan Fish Farm şirkətlərinin rəhbəri Kənan Məmmədli, həmçinin universitetin prorektor, dekan, akademik heyət üzvləri və şirkətlərin idarəçi, mütəxəssis heyəti iştirak ediblər.

Çıxışlarda qeyd edilib ki, aqrar və baytarlıq istiqamətlərində dayanıqlı və rəqabət qabiliyyətli in-

A Memorandum of Understanding on education-industry cooperation was signed on February 25, at Khazar University between the university and Azerbaijan Poultry Company and Azerbaijan Fish Farm. The document aims to strengthen the integration of higher education with the real production environment, accelerate the development of applied science, and ensure the training of highly qualified personnel.

The signing ceremony was attended by the founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, the university's rector Dr. Raziya Isayeva, the head of Azerbaijan Poultry Company and Azerbaijan Fish Farm Kanan Mammadli, as well as the university's vice-rectors, deans, academic staff members, and the management and specialist staff of the companies.

Speeches emphasized that establishing effective cooperation mechanisms between science, education, and production is of particular strategic importance for




*Hamlet İsaxanlı* *Rüstəm Qasımov*

kişafın təmin olunması baxımından elm, təhsil və istehsalat arasında səmərəli əməkdaşlıq mexanizmlərinin qurulması xüsusi strateji önəm daşıyır.

Memorandum çərçivəsində baytarlıq təbabəti, quşçuluq və akvakultura istiqamətlərində birgə elmi layihələrin icrası, müasir diaqnostik və idarəetmə mexanizmlərinin tətbiqi, tələbələrin istehsalat təcrübələrinin təşkili , ixtisasartırma proqramlarının həyata keçirilməsi nəzərdə tutulur.

ensuring sustainable and competitive development in the fields of agronomy and veterinary medicine. Within the framework of the Memorandum, provisions have been made for the implementation of joint scientific projects in the fields of veterinary medicine, poultry farming, and aquaculture, the application of modern diagnostic and management mechanisms, the organization of students' practical training, and the implementation of professional development programs.



## ƏMƏKDAŞLAR ELMİ-TƏDQİQAT TİBBİ PROFİLAKTİKA İNSTİTUTUNDA

Xəzər Universitetinin Həyat elmləri departamentinin müdiri Dr. Cəmalə Eldarova və departamentin dosenti Dr. Cavid Ocaqinin iştirakı ilə martın 3-də V.Y. Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunda görüş keçirilib.

İnstitutun direktoru Prof. Adil Allahverdiyev müəssisənin əsas fəaliyyət istiqamətləri, həyata keçirilən elmi-tədqiqat layihələri, tibb sahəsində aparılan fundamental və tətbiqi araşdırmalar barədə geniş məlumat verib. Qonaqlar institutun maddi-texniki infrastrukturu ilə yaxından tanış olublar. Müasir elmi tədqiqatların aparılması üçün yaradılmış müxtəlif laboratoriyalar, klinik bölmələr, həmçinin, zəngin elmi ədəbiyyat fonduna malik kitabxana ilə tanışlıq böyük maraq doğurub.

Görüş zamanı tərəflər arasında biotibb, molekulyar biologiya, biotexnologiya və həyat elmlərinin digər istiqamətlərində birgə elmi-tədqiqat layihələrinin reallaşdırılması, akademik əməkdaşlığın genişləndirilməsi, gənc tədqiqatçıların və yüksək ixtisaslı kadrların hazırlanması, eləcə də elmi bilik və texnologiyaların mübadiləsi istiqamətində perspektiv əməkdaşlıq imkanları müzakirə olunub. Görüşün sonunda iki elmi qurum arasında elmi-tədqiqat və akademik əməkdaşlığın institusional əsasda inkişaf etdirilməsi məqsədilə qarşılıqlı əməkdaşlıq haqqında memorandumun imzalanmasının nəzərdə tutulduğu qeyd edilib.



*Adil Allahverdiyev, Cəmalə Eldarova, Cavid Ocaqi*

## STAFF MEMBERS AT SCIENTIFIC RESEARCH INSTITUTE OF MEDICAL PREVENTIVE MEDICINE

On March 3, a meeting was held at the V.Y. Akhundov Scientific Research Institute of Medical Preventive Medicine with the participation of Dr. Jamala Eldarova, Head of the Life Sciences Department at Khazar, and Dr. Javid Ojaghin, Associate Professor of the department.

Institute Director Prof. Adil Allahverdiyev provided comprehensive information on the institution's primary areas of activity, ongoing research projects, and fundamental and applied research conducted in the field of medicine. The guests familiarized themselves with the institute's material and technical infrastructure. The visit generated considerable interest, particularly regarding the various laboratories and clinical units established for conducting modern scientific research and the library housing an extensive scientific literature collection.

During the meeting, the parties discussed prospective areas of cooperation, including the implementation of joint research projects in biomedicine, molecular biology, biotechnology, and other fields of life sciences, the expansion of academic collaboration, the training of young researchers and highly qualified specialists, as well as the exchange of scientific knowledge and technologies. At the conclusion of the meeting, it was noted that the signing of a memorandum of mutual cooperation is envisaged with the aim of developing research and academic collaboration between the two scientific institutions on an institutional basis.

# "XƏZƏR"İN TƏLƏBƏSİ ALMANİYADA SERTİFİKAT ALIB

# KHAZAR UNIVERSITY STUDENT RECEIVE CERTIFICATE IN GERMANY

Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin memarlıq ixtisası üzrə 2-ci kurs tələbəsi Elmira Azər qızı Novruzova Almaniyanın Berlin şəhərində keçirilən Kent Orman Yaşam Atölyesi - Multidisipliner Mekansal Planlama Eyitiminin 8-ci toplantısında iştirak edib və sertifikatla təltif olunub. Sertifikat layihə koordinatoru, Kent Orman Yaşam Atölyesinin qurucusu Nejla Kılınç və Türk-Alman iş verənlər dərnəyinin başqanı Remzi Kaplan tərəfindən imzalanıb.

Elmira Novruzova, a second-year student majoring in Architecture at the School of Science and Engineering of Khazar University, participated in the 8th meeting of the Urban Forest Living Workshop - Multidisciplinary Spatial Planning Training, held in Berlin, Germany, and was awarded a certificate. The certificate was signed by project coordinator and founder of the Urban Forest Living Workshop Nejla Kılınç and President of the Turkish-German Employers' Association Remzi Kaplan.



**Arxa cərgədə**: *Soldan dördüncü Elmira Novruzova*

## “XARİCDƏ MAGİSTR TƏHSİLİ” MÖVZUSUNDA MƏLUMAT SESSİYASI

Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə martın 5-də “NA Academy” xaricdə təhsil şirkəti tərəfindən “Xaricdə magistr təhsili” mövzusunda məlumat sessiyası keçirilib. “Xəzər”in Neftçilər kampusunda təşkil olunan görüşdə tələbələr xarici universitetlərdə magistr proqramları, qəbul şərtləri və müraciət prosesinin mərhələləri haqqında məlumatlandırılıblar. Eyni zamanda, iştirakçılar beynəlxalq təhsil imkanları, akademik inkişaf perspektivləri və xaricdə təhsilin gələcək karyera imkanlarına təsiri barədə də ətraflı bilgi alıblar.

“NA Academy” şirkəti nümayəndələri tələbələri müasir əmək bazarında xüsusi tələbat olan sahələr üzrə təqdim olunan magistr proqramları ilə tanış ediblər. Bu istiqamətlər arasında informasiya texnologiyaları, süni intellekt, biznes və menecment, digital marketinq, eləcə də psixologiya və klinik psixologiya kimi ixtisaslar yer alır.

Görüşün diqqətçəkən məqamlarından biri də beynəlxalq tələbə mübadilə imkanları ilə bağlı olub. “Tələbə mübadiləsi” proqramları çərçivəsində tələbələr Almaniyada təhsil alarkən, Kanada, Çin və ABŞ universitetlərində bir semestr-




## INFORMATION SESSION ON "MASTER'S EDUCATION ABROAD"

An information session titled "Master's Education Abroad" was held on March 5, by the foreign education company "NA Academy," organized by Career and Alumni Centre. At the meeting held at Neftchiler campus, students were informed about master's programmes at foreign universities, admission requirements, and the stages of the application process. Participants also received detailed information on international education opportunities, academic development prospects, and impact of studying abroad on future career opportunities.

Representatives of "NA Academy" introduced students to master's programmes offered in fields with particular demand in the contemporary labour market. These fields include information technology, artificial intelligence, business and management, digital marketing, as well as specialisations such as psychology and clinical psychology.

One of the notable highlights of the meeting concerned international student exchange opportunities. Within the framework of "student exchange" programmes, students studying in Germany may participate in a one-semester exc-

lik mübadilə proqramında iştirak edə bilərlər.

Təqdimat zamanı şirkətin nümayəndələri - təsisçi və direktor, Xəzər Universitetinin məzunu Mürsəl Muradov, Avropa Universitetinin (University of Europe) Azərbaycanda rəsmi nümayəndəsi Leyla Həmidova proqramların məqsədi, müraciət qaydaları və iştirakçılar üçün açılan perspektivlər barədə ətraflı məlumat veriblər.

Tədbir tələbələr tərəfindən böyük maraqla qarşılanıb və iştirakçılar xaricdə təhsil planları ilə bağlı suallarını birbaşa mütəxəssislərə ünvanlamaq imkanı əldə ediblər. Tədbir tələbələrin beynəlxalq təhsil imkanları barədə məlumatlarının artırılması və onların gələcək akademik və peşəkar inkişafına dəstək məqsədi daşıyıb.

hange programme at universities in Canada, China, and the United States.

During the presentation, company representatives — founder and director Mursal Muradov, a Khazar University alumnus, and Leyla Hamidova, the official representative of the University of Europe in Azerbaijan — provided detailed information on the aims of the programmes, application procedures, and the prospects available to participants.

The event was met with great interest by students, who had the opportunity to address their questions regarding study abroad plans directly to the specialists. The event was aimed at raising students' awareness of international education opportunities and supporting their future academic and professional development.

## MÜASİR SƏNAYE TƏLƏBLƏRİNƏ UYĞUN YENİ FƏNN TƏDRİS OLUNUR

## NEW COURSE INTRODUCED TO MEET MODERN INDUSTRY REQUIREMENTS

Ölkəmizin neft sənayesinin əsas problemlərindən olmuş karbohidrogen ehtiyatlarının idarə edilməsi yeni idarəetmə sistemlərinə transformasiya prosesindədir. Artıq Azərbaycanda karbohidrogen ehtiyatlarının hesablanması, uçotu və idarə olunması prosesi 1983-cü ilə aid sovet sistemindən beynəlxalq PRMS-ə (Petroleum Resources Management System), yəni, karbohidrogen resurslarının idarə olunması sisteminə keçmək üzrədir. PRMS beynəlxalq layihələrdə karbohidrogen aktivlərini tanıdan sistemdir.

Qeyd olunan sənaye tələblərinin reallaşdırılması məqsədilə Xəzər Universitetinin Neft mühəndisliyi departamentində bakalavriat və magistratura pillələrində yeni – ehtiyatların idarə olunması (Reserve Management) fənni keçilir. Məqsəd müasir sənayenin tələblərinə uyğun mütəxəssislərin hazırlanmasıdır. Sənaye müəssisələri ilə əlaqəli şəkildə planlaşdırılan dərslər ölkəmizdə həmin sistemlərin təlimat və metodologiyalarına uyğun metodiki vəsaitlər əsasında tədris olunur. Fənnin tədrisinə SOCAR-ın Yataqların qiymətləndirilməsi və karbohidrogen ehtiyatlarının idarə olunması şöbəsinin rəisi, Neft mühəndisliyi departamentinin müdiri, Dr. Elvin Əhmədov tərəfindən başlanılıb.

The management of hydrocarbon reserves, one of the key challenges facing our country's oil industry, is undergoing a transformation toward new management systems. Azerbaijan is now transitioning from the Soviet-era system dating back to 1983 to the international PRMS (Petroleum Resources Management System) - the system for managing petroleum resources that is recognized in international projects for classifying hydrocarbon assets.

With the aim of meeting these industry requirements, a new course - Reserve Management - is being taught at the bachelor's and master's levels in the Petroleum Engineering Department of Khazar University. The objective is to train specialists in line with the demands of the modern industry. The classes, planned in coordination with industrial enterprises, are delivered on the basis of methodological materials aligned with the guidelines and methodologies of the relevant systems in our country. The course was initiated by Dr. Elvin Ahmadov, Head of the Reservoir Evaluation and Hydrocarbon Reserves Management Department at SOCAR and Head of the Petroleum Engineering Department.

"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU




# İRAQ-TÜRKMAN ƏDƏBİYYATINA DAİR YENİ KİTAB

Ədəbiyyat İnstitutunda İraq-Türkman ədəbiyyatına dair yeni kitab işıq üzü görüb. Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev və filologiya üzrə fəlsəfə doktoru Orxan İsayevin müəllifi olduqları "İraq-Türkman ədəbiyyatı tarixi" monoqrafiyasında İraqda yaşayan soydaşlarımızın ədəbiyyatı ilk dəfə mərhələlərə bölünmüş, inkişaf istiqamətləri müəyyən edilmişdir.

Bundan əlavə, "İraq-Türkman ədəbiyyatı tarixi"ndə türkmanların yazılı ədəbiyyatı ilə yanaşı, şifahi xalq ədəbiyyatı da öz əksini tapmış, əsər Azərbaycan ədəbiyyat tarixçiliyi prinsiplərinə uyğun şəkildə yazılmışdır. Kitaba yazılmış Ön sözün müəllifi AMEA prezidenti akademik İsa Həbibbəyli, redaktorları Dr. Mustafa Ziya, Dr. Şəmsəddin Kuzəçi, rəyçilər isə professorlar Məhərrəm Qasımlı, Məmməd Əliyev, Nizami Tağısoy və filologiya üzrə fəlsəfə doktoru Səkinə Qaybalıyevadır.

## ƏDƏBİYYAT İNSTİTUTUNUN ALİMİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDÜ VERİLİB

Ədəbiyyat İnstitutunun Elmi şurasının ilk iclasında filologiya elmləri doktoru, professor İmamverdi Həmidov 85 illik yubileyi və məhsuldar elmi fəaliyyətinə görə İnstitutun Fəxri Fərmanı ilə təltif edilib. Fəxri Fərmanı alimə təqdim edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli qeyd edib ki, alimin Azərbaycan elminin inkişafındakı xidmətləri yüksək qiymətləndirilib. Prezident İlham Əliyevin Sərəncamı ilə professor İmamverdi Həmidova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilib.




*İsa Həbibbəyli, İmamverdi Həmidov*




## "SALAM, QARABAĞIM! XOŞ GÖRDÜK, GÜLLÜCƏM!" KİTABI NƏŞR OLUNUB

Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru Elçin Mehrəliyevin "Salam, Qarabağım! Xoş gördük, Güllücəm!" (Qarabağa qayıdış: Xatirələr, duyğular, arzular) kitabı nəşr olunub.

Kitab Ədəbiyyat İnstitutunun Elmi Şurasının 9 dekabr 2025-ci il tarixli 7 saylı qərarı ilə nəşr edilib. Ecoprint" nəşriyyatında çap olunan kitab 400 səhifədən ibarətdir.

Kitabın elmi redaktoru Mətbuat tarixi və publisistika şöbəsinin müdiri filologiya elmləri doktoru, professor Vüqar Əhməddir. Rəyçiləri tarix elmləri doktoru, professor Qasım Hacıyev və filologiya üzrə fəlsəfə doktoru, dosent Rauf Sadıxovdur.

Nəşr "İlk söz", "Mən, mənim qəhrəmanım və yurdum", "Zaman dəyişir, xislət dəyişmir", "Qarabağ həqiqətləri bədii yaradıcılığımda" və "Son söz" bölümlərindən ibarətdir.

Kitabda Qarabağın işğalı, eyni zamanda Zəfər yürüşü nəticəsində Azərbaycanın dövlət suverenliyini tam bərpa etməsi, Qarabağın dirçəldilməsi və qaçqın-köçkünlərin öz yurdlarına qayıdışı məsələləri, dağıdılmış yurd yerlərinə səfər təəssüratı duyğulu təfərrüatlarla əksini tapıb. Qarabağ münaqişəsi ətrafında aparılan araşdırmalar nəticəsində əldə olunmuş nəticələr də kitabda yer alıb.

**Gülnar Səma**
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*İctimaiyyətlə əlaqələr şöbəsi*

# "DƏLİ CEYRAN"

## *Tanımadığımız Tanışlar...*

"Azərbaycan" jurnalının 2026-cı il 2- ci və 3-4-cü saylarında professor Hamlet İsaxanlının "Dəli Ceyran" romanı çapdan çıxmışdır. Romanla bağlı öz təəssüratlarımı bölüşmək istərdim. Əsər elə qələmə alınıb ki, oxucu onu oxuyarkən sanki hadisələrin içində yaşayır, qəhrəmanların yanında olur. Onların keçirdiyi hisslər, yaşadığı duyğular oxucuya da ötürülə bilir. Müəllif duyğuları olduqca saf və səmimi şəkildə çatdırmağı bacarıb. Əsərin cazibəsi də məhz bu sadəlikdə və təbiilikdə gizlənir. Xüsusilə Tahirin Alinaya olan sevgisi o qədər təsirli təsvir edilib ki, əsəri oxuyub bitirdikdən sonra belə onun təsirindən çıxmaq olmur. Etiraf etməliyəm ki, Tahiri və ümumiyyətlə kişi təbiətini dərindən anlayan, sevgisini səbrlə içində daşıya bilən Alinaya həsəd aparmamaq mümkün deyil.




Düşünürəm ki, "Dəli Ceyran" kimi əsərlər gənclər üçün olduqca önəmlidir. Çünki müasir dövrdə sevgi, sədaqət və dostluq kimi gözəl hisslər əvvəlki dövrlərdə olduğu qədər güclü hiss olunmur. Belə əsərlər isə həmin dəyərlərin yenidən formalaşmasına təsir göstərə bilər.

Əsərin başqa bir gözəlliyi də ondadır ki, hər oxucu burada həm də özünü görə, tanıdığı insanları xatırlaya bilər. Müəllifin qəhrəmanların daxili dünyasını bu qədər dərindən duyması xüsusi diqqət çəkir. Məsələn, Baharın rəfiqələri ilə söhbətləri, hissləri o qədər real təsvir olunub ki, sanki müəllif bu hadisələri yaşayan insanlarla birbaşa ünsiyyətdə olub, daha doğrusu, sanki bir tərəfdə dayanıb bütün bu söhbətləri eşidib.

Əsər oxucunu zərrə qədər yormur, əksinə, oxuduqca insan onun sehrinə düşür və bir də baxır ki, son səhifəyə çatıb.

Əsərdə Tahirin iki fərqli qadına qarşı hisslərindən bəhs olunur. İlk baxışda bu, iki sevgi kimi görünsə də, lakin əslində fərqli duyğulardan söhbət getdiyi bilinir. Tahir Bahara heyran olur – onun gözəlliyinə, davranışına, cəsarətinə vurulur. Amma zaman keçdikcə anlayır ki, Bahar onun ruhuna uyğun deyil. Sonradan isə o, öz xarakterinə daha yaxın olan Alinanı seçir və onu qəlbən sevir. Çünki Bahara tanımadan vurulur, Alinanı isə tanıyaraq sevir.

Bahar və Alina tam fərqli xarakterlərdir. Bahar sevgisində tərəddüd edərkən, Alina qətiyyətli və güclü görünür. O, Tahiri gizli və qarşılıqsız sevsə də, sevgisində sabitdir. Tahir Baharı sevdi, lakin Alinanın həm ruhunu, həm də qəlbini sevdiyi üçün ona olan sevgisi daha dərin və mənalı oldu.




Əsər başdan-sona sevgi ilə yoğrulub. Alinanın qazandığı sevgi isə təsadüfi deyil. Çünki Tahir yalnız zahiri gözəlliyə deyil, qadının ağlına, danışığına, dünyagörüşünə və zərifliyinə dəyər verən bir insandır. Belə bir insanın qəlbini qazanmaq isə hər kəsin bacara biləcəyi bir şey deyil. Alina bunu bacardı.

"Dəli Ceyran"ı oxuyarkən sevdiyim iki əsər yadıma düşdü: "Əli və Nino" və "Dəli Kür". "Əli və Nino"da gördüyüm təbiilik, səmimi sevgi duyğuları və əsəri durmadan, bir nəfəsə oxumaq istəyim "Dəli Ceyran"ı oxuyanda da məni öz qoynuna aldı. Hər iki əsərdə insani sevgilər Azərbaycan sevgisi fonunda baş verir. Cəmiyyətin üzləşdiyi ictimai problemlər baxımından da bu əsərlər aktualdır, "Dəli Kür" 19-cu əsr Rusiya dövrü Azərbaycanını, "Əli və Nino" 20-ci əsrin ilk rübündəki milli dirçəliş dövrünü, "Dəli Ceyran" isə bir əsr sonrakı, indi yaşadığımız dövrün, 21-ci əsrin ilk rübünün problemlərinə toxunur. Müxtəlif xarakterli müasir Azərbaycan qadınlarının həyatda üzləşdikləri insani, maddi və mənəvi çətinliklər, nəsillərarası anlaşılmazlıqlar, ədalət və gerçəklik kimi mövzuları müəllif "Dəli Ceyran"da qeyri-adi incə cizgilər və boyalarla təqdim edə bilmişdir.

"Dəli Ceyran" bir sevgi dastanıdır, sevginin doğurduğu xoşbəxt həyat hekayəsidir, Əsərin sonunda vurğulandığı kimi, "Sevgi ilə dolu olmayan insan xoşbəxt ola bilməz. Xoşbəxtliyin əsası sevgidir. Sevgi bu mürəkkəb və sirli dünyanın ən gözəl bəzəyi, ona ahəng və rəng qatan ən ali duyğudur".

**Fəridə Tatardar**
*Xəzər Universiteti*
*Fizika və elektronika*
*departamentinin müdiri*



## "XƏZƏR"İN NÜMAYƏNDƏLƏRİ SOCAR`DA SEMİNARDA

Xəzər Universitetinin nümayəndələri martın 5-də SOCAR-ın Təbii Ehtiyatların Kəşfiyyatı (TEK) Seqmentində seminarda iştirak ediblər.

Seminarın əsas məqsədi TEK Seqmentinin apardığı müasir axtarış-kəşfiyyat işləri, karbohidrogen ehtiyatlarının qiymətləndirilmə strategiyaları və bu istiqamətdə sənayenin tələbləri ilə iştirakçıları tanış etmək olub. Seminarda TEK seqmentinin rəhbərliyi, mütəxəssisləri, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU), Bakı Ali Neft Məktəbi (BANM), Fransa-Azərbaycan Universiteti (UFAZ) və Xəzər Universitetinin rəhbərləri və tələbələri iştirak ediblər. Tədbiri SOCAR-ın vitse-prezidenti Arzu Cavadova açaraq, perspektiv strukturların axtarış-kəşfiyyatı, yataqların qiymətləndirilməsi, karbohidrogen ehtiyatlarının idarə olunması məsələlərinə yeni yanaşmalar barədə iştirakçıları məlumatlandırıb.

Aparılan müasir islahatlar, görülən işlər və gələcək strategiyalar TEK Seqmentinin əməkdaşları Elvin Əhmədov, Elnur Ağatağıyev, Tural Əhmədov, Aytəkin İsmayılova və Sərvan Heydərli tərəfindən iştirakçıların nəzərinə çatdırılıb. Müzakirələrdən sonra iştirakçılar SOCAR-ın Neft muzeyində olublar.

## KHAZAR REPRESENTATIVES AT SEMINAR IN SOCAR

Representatives of Khazar University participated in a seminar at SOCAR's Natural Resources Exploration (NRE) Segment on March 5.

The primary objective of the seminar was to familiarize participants with the NRE Segment's current exploration and prospecting operations, hydrocarbon reserve assessment strategies, and industry requirements in this field. The seminar brought together the leadership and specialists of the NRE Segment, as well as the administrators and students of Azerbaijan State Oil and Industry University (ASOIU), Baku Higher Oil School (BHOS), the French-Azerbaijani University (UFAZ), and Khazar University.

The event was opened by SOCAR Vice President Arzu Javadova, who briefed participants on new approaches to the exploration of prospective structures, field assessment, and hydrocarbon reserve management.

Current reforms, completed work, and future strategies were presented to participants by NRE Segment employees Elvin Ahmadov, Elnur Aghatagiyev, Tural Ahmadov, Aytakin Ismayilova, and Sarvan Heydarli. After discussions participants visited SOCAR's Oil Museum.

# KENDO ÜZRƏ SEMİNAR

Yaponiyanın Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə martın 6-da Xəzər Universitetinin Mərmər zalında kendo idman növünə həsr olunmuş seminar formatlı tədbir keçirilib. Tədbirdə kendo üzrə mütəxəssis Masanori Yasue və Xəzər Universitetinin tələbələri iştirak ediblər.

# SEMINAR ON KENDO

On March 6, a seminar-format event dedicated to the sport of kendo was held in the Marble Hall of Khazar University, organized by the Embassy of Japan in Azerbaijan. The event was attended by kendo specialist Masanori Yasue and students of Khazar University.



*Masanori Yasue*



Seminar Masanori Yasuenin tələbələri salamlaması və açılış nitqi ilə başlayıb. O, çıxışı zamanı Yaponiyanın ənənəvi döyüş sənətlərindən olan kendo haqqında ətraflı məlumat verib, bu idman növünün tarixi, fəlsəfəsi və əsas prinsiplərindən danışıb.

Tədbir interaktiv formatda təşkil olunub. Tələbələr kendo üzrə əsas hərəkətlər və texnikalarla tanış olublar. Həmçinin, praktiki məşğələ zamanı iştirakçılar bu hərəkətləri sınaqdan keçirmək imkanı əldə ediblər. Tələbələr mövzu ilə bağlı müxtəlif suallar verib, mütəxəssislə fikir mübadiləsi də aparıblar.

Seminar iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb, yapon mədəniyyəti və döyüş sənətləri ilə yaxından tanışlıq baxımından faydalı olub.

The seminar opened with Masanori Yasue's welcome address and opening remarks. During his speech, he provided detailed information about kendo - one of Japan's traditional martial arts - covering the history, philosophy, and core principles of the sport.

The event was organized in an interactive format. Students were introduced to the fundamental movements and techniques of kendo, and during the practical session, participants had the opportunity to put these movements into practice. Students posed various questions on the subject and engaged in an exchange of views with the specialist.

The seminar was met with great interest by participants and proved to be a valuable opportunity for a closer acquaintance with Japanese culture and martial arts.

## AIESEC AZƏRBAYCAN TƏŞKİLATI NÜMAYƏNDƏLƏRİNİN TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜ




Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə martın 6-da AIESEC Azərbaycan təşkilatının nümayəndələri ilə universitetin Neftçilər, Nərimanov və Bakıxanov kampuslarında tələbələrin görüşü keçirilib.

Görüşdə tələbələr AIESEC tərəfindən təqdim olunan beynəlxalq proqramlar, gənclər üçün yaradılan inkişaf imkanları və xaricdə təcrübə proqramları haqqında ətraflı məlumat əldə ediblər.

Görüşün məqsədi tələbələrin liderlik bacarıqlarının inkişafına dəstək olmaq, onların fərdi və peşəkar inkişafını təşviq etmək, həmçinin, sosial layihələrdə iştirak və layihə idarəçiliyi sahəsində biliklərini artırmaq olub. Belə görüşlər tələbələrin karyera planlaşdırmasına da kömək edir, onların qlobal əmək bazarı haqqında məlumatını artırır və beynəlxalq təcrübə imkanlarını genişləndirir.

Təqdimat çərçivəsində AIESEC Azərbaycan nümayəndələri tərəfindən “Global Volunteer”, “Global Teacher” və “Global Talent” proqramları haqqında da məlumat verilib. Bildirilib ki, bu proqramlar gənclərə müxtəlif ölkələrdə təcrübə qazanmaq, fərqli mədəniyyətləri yaxından tanımaq və sosial layihələrdə iştirak etməklə, cəmiyyətə töhfə vermək imkanı yaradır.

Tədbirdə tələbələr üçün ilkin müraciət mərhələsi, seçim prosesi və iştirak qaydaları barədə də praktiki tövsiyələr təqdim olunub.

Layihə menecerləri Leyla Bayramova, Maral Əlizadə, Lamiyə Haqverdili, Cavid Ələsgərli, Zeynəb Babayeva proqramların məqsədi, müraciət şərtləri və iştirakçılar üçün yaradılan imkanlar barədə geniş məlumat verib, tələbələrin suallarını cavablandırıblar.

## MEETING OF AIESEC AZERBAIJAN REPRESENTATIVES WITH STUDENTS

Organized by the Career and Alumni Center of Khazar University, a meeting between representatives of AIESEC Azerbaijan and students at the university's Neftchiler, Narimanov, and Bakhikhanov campuses was held on March 6.

During the meeting, students received information about international programs presented by AIESEC, development opportunities created for the youth, and internship programs abroad.

The purpose of the meeting was to support the development of students' leadership skills, promote their personal and professional growth, and enhance their knowledge in the areas of participation in social projects and project management. Such meetings also assist students with career planning, broaden their awareness of the global labor market, and expand their international experience opportunities.

During presentation AIESEC Azerbaijan representatives gave information about the "Global Volunteer," "Global Teacher," and "Global Talent" programs. It was noted that these programs offer the youth the opportunity to gain experience in various countries, familiarize themselves with different cultures, and contribute to society through participation in social projects.

Practical recommendations were also presented at the event regarding the initial application stage, selection process, and participation requirements for students. Project managers Leyla Bayramova, Maral Alizade, Lamiya Hagverdili, Javid Alasgarli, and Zaynab Babayeva provided comprehensive information about the goals of the programs, application requirements, and opportunities for participants, and answered students' questions.

# ANKARA SOSİAL ELMLƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏSİ "XƏZƏR"DƏ

# REPRESENTATIVE OF ANKARA SOCIAL SCIENCES UNIVERSITY AT KHAZAR



Barın Kayaoğlu

Türkiyənin Ankara Sosial Elmlər Universitetinin Amerika Araşdırmaları rəhbəri Dr. Barın Kayaoğlu ilə martın 10-da Xəzər Universitetində görüş keçirilib. Görüşdə Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Orxan Vəliyev və Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Fidan Cəfərova iştirak ediblər.

Görüş zamanı tərəflər universitetlərin akademik mübadilə proqramları, birgə elmi tədqiqatlar, konfrans və seminarların təşkili istiqamətlərində imkanları müzakirə ediblər. Həmçinin, görüşdə beynəlxalq layihələrdə birgə iştirak və akademik əlaqələrin gücləndirilməsi kimi məsələlər də diqqət mərkəzində olub.

A meeting with Dr. Barın Kayaoğlu, Head of American Studies at Ankara Social Sciences University of Türkiye, was held at Khazar University on March 10. The meeting was attended by Orkhan Valiyev, Head of the Department of Political Science and Philosophy at Khazar University, and Fidan Jafarova, staff member of the International Relations Office.

During the meeting, the parties discussed opportunities in the areas of academic exchange programs, joint scientific research, and the organization of conferences and seminars. Also in focus were matters such as joint participation in international projects and the strengthening of academic ties.



Orxan Vəliyev, Fidan Cəfərova

## UNİVERSİTETDƏ MİKROMOBİLLİK VƏ VELOSİPED MƏDƏNİYYƏTİ TƏŞVİQ OLUNUR



Ruhlan Əbülfəzzadə

Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə martın 11-də Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) əməkdaşları tərəfindən "Mikromobillik və Velosiped Təlimi" mövzusunda maarifləndirici tədbir keçirildi.

Təlimin açılışında Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva mərkəzin missiyası, fəaliyyəti və tələbələrin peşəkar inkişafına dəstək məqsədilə həyata keçirilən layihələr barədə qısa məlumat verdi. O, tələbələrin əmək bazarına uğurlu inteqrasiyasını təmin etmək üçün təqdim olunan karyera xidmətləri və mövcud imkanlardan söz açdı.

Təlimdə tələbələrə müasir şəhər mobilliyinin vacib istiqamətlərindən biri hesab olunan mikromobillik

## MICROMOBILITY AND CYCLING CULTURE PROMOTED AT UNIVERSITY



Fatimə Göycəli

An awareness event on the topic of "Micromobility and Cycling Training" was held on March 11, by employees of the Azerbaijan Land Transport Agency (ALTA), organised by the Career and Alumni Centre of Khazar University.

At the opening of the training, Zarifa Aliyeva, Director of the Career and Alumni Centre, gave a brief overview of the Centre's mission, activities, and projects implemented to support the professional development of students. She spoke about the career services and available opportunities provided to ensure students' successful integration into the labour market.

During the training, participants were given comprehensive information about micromobility, considered one of the key directions of modern urban mobility. On the presentation, information was provided



haqqında geniş məlumat verildi. Təqdimat zamanı şəhər mikromobillik xidmətlərindən biri olan APAR haqqında da məlumat verildi. APAR velosiped və skuterlərin icarəsini innovativ şəkildə təşkil edən mikromobillik xidmətidir. Xidmətin əsas məqsədi bu nəqliyyat vasitələrini yalnız əyləncə məqsədilə deyil, həm də şəhər daxilində gündəlik hərəkətin bir hissəsinə çevirmək və istifadəçilərə ekoloji təmiz alternativ nəqliyyat imkanı yaratmaqdır. Bu mobil tətbiqi vasitəsilə istifadəçilər velosiped və skuterləri asanlıqla icarəyə götürə bilirlər. Görüşdə agentliyin




nümayəndələri – Kommunikasiya departamentinin böyük mütəxəssisi Ruhlan Əbülfəzzadə və APAR-ın İnnovasiyalar və marketinq şöbəsinin rəhbəri Fatimə Göycəli ölkədə yerüstü nəqliyyatın inkişafı, ictimai nəqliyyatın səmərəliliyinin artırılması və alternativ nəqliyyat vasitələrinin təşviqi istiqamətində həyata keçirilən layihələr haqqında da məlumat verdilər.Təlim zamanı iştirakçılara mikromobillik vasitələrindən istifadə edərkən təhlükəsizlik qaydalarına riayət etməyin vacibliyi, qoruyucu vasitələrin istifadəsi və yol hərəkəti qaydalarına əməl olunması barədə praktiki tövsiyələr verildi. Sonra tələbələr velosiped sürmə üzrə praktiki məşğələdə iştirak edərək, bacarıqlarını təhlükəsiz sınaqdan keçirdilər. Belə maarifləndirici təşəbbüslər gənclər arasında təhlükəsiz nəqliyyat mədəniyyətinin formalaşmasına, mikromobillik vasitələrindən düzgün istifadənin təşviqinə və şəhər mühitində daha dayanıqlı mobillik vərdişlərinin inkişafına xidmət edir.

about APAR, one of the urban micromobility services. APAR is a micromobility service that organises the rental of bicycles and scooters in an innovative manner. The primary goal of the service is to transform these vehicles not merely into recreation tool, but into a part of daily urban commuting, while providing users with an alternative green transport option. Through the mobile app, users can easily rent bicycles and scooters.

At the event, representatives of the agency – Ruhlan Abulfazzade, Senior Specialist of the Communications Department, and Fatima Goychali, Head of the Innovations and Marketing Division of APAR – also provided information about projects being implemented in the country in the areas of surface transport development, improving the efficiency of public transport, and promoting alternative means of transport.

During the training, participants were given practical recommendations on the importance of adhering to safety rules when using micromobility vehicles, the use of protective equipment, and compliance with road traffic regulations. Students then took part in a practical cycling session, during which they tested their safe riding skills.

Such awareness-raising initiatives serve to foster a culture of safe transportation among young people, promote the proper use of micromobility vehicles, and develop more sustainable mobility habits in the urban environment.

# NEFT MÜHƏNDİSLİYİ DEPARTAMENTİNDƏ TƏLƏBƏLƏRLƏ GÖRÜŞ

# MEETING WITH STUDENTS AT PETROLEUM ENGINEERING DEPARTMENT

Xəzər Universitetinin Neft mühəndisliyi departamentində martın 12-də üçüncü və dördüncü kurs tələbələri ilə görüş keçirilib. Məqsəd tələbələri departamentin yeni strategiyası və gələcək planları, təkmilləşdirmə tədbirləri ilə tanış etmək, mövcud problemlərlə maraqlanmaq və müvafiq dəstək imkanlarının müzakirəsi olub. Departament rəhbəri Dr. Elvin Əhmədov və assistent Mirsaleh Heydərov müzakirələrdən sonra tələbələrlə fərdi şəkildə də görüşərək, gələcək uğurların qazanılmasında departament-tələbə münasibətlərinin əhəmiyyətini qeyd ediblər.

On March 12, a meeting was held with third- and fourth-year students at the Petroleum Engineering Department of Khazar University. The purpose of the meeting was to familiarize students with the department's new strategy and future plans, improvement measures, to inquire about existing challenges, and to discuss available support opportunities. Following the discussions, Department Head Dr. Elvin Ahmadov and assistant Mirsaleh Heydarov also met individually with students, emphasizing the importance of department-student relations in achieving future success.

# “ROBOTOTEXNİKA, ETİKA VƏ QLOBAL LİDERLİK” MÖVZUSUNDA SEMİNAR

Xəzər Universitetində martın 13-də robototexnika və avtomatlaşdırma mühəndisi, TU Dortmund Universitetində tədqiqatçı,”Mühəndislikdə qadınlar-Azərbaycan” layihəsinin (“IEEE Women in Engineering Azerbaijan”) rəhbəri Sonabəyim Hüseynzadənin “Robototexnika, Etika və Qlobal Liderlik” mövzusunda seminarı keçirilib.



*Sonabəyim Hüseynzadə*



Xəzər Universitetinin professor-müəllim heyəti və tələbələrinin iştirak etdiyi seminarda robotların artıq yalnız sənayedə deyil, xəstəxanalar, yaşlılara qulluq mərkəzləri və ictimai məkanlarda da istifadə olunmasının yaratdığı etik və sosial məsələlərdən danışılıb

# SEMINAR ON "ROBOTICS, ETHICS AND GLOBAL LEADERSHIP"

On March 13, a seminar titled "Robotics, Ethics and Global Leadership" was held at Khazar University, delivered by Sonabeyim Huseynzade - a robotics and automation engineer, researcher at TU Dortmund University, and leader of the "IEEE Women in Engineering Azerbaijan" project.

The seminar, attended by Khazar University faculty and students, addressed the ethical and social issues arising from the use of robots not only in industry but also in hospitals, elderly care centers, and public spaces, and included interactive discussions. Drawing on research conducted with elderly individuals and

və interaktiv müzakirələr aparılıb. Yaponiyanın Sendai şəhərində yaşlı insanlarla və humanoid robotlarla aparılan tədqiqatlara əsaslanaraq, insan-robot qarşılıqlı əlaqəsinin xüsusiyyətləri, robotların emosional və mədəni siqnallara uyğun davranışının insanların etibarına təsiri barədə ətraflı məlumat verilib.

Sosial robotların inkişafı ilə bağlı etik qaydalar, mövcud idarəetmə boşluqları və bu texnologiyaların məsuliyyətli şəkildə tətbiqi üçün zəruri olan texniki və institusional yanaşmalar da iştirakçıların diqqətinə çatdırılıb. Seminar çərçivəsində iştirakçıların sualları cavablandırılıb.

humanoid robots in Sendai, Japan, detailed information was provided on the characteristics of human-robot interaction and the impact of robots' behavior in response to emotional and cultural cues on human trust.

Participants were also informed about ethical guidelines related to the development of social robots, existing governance gaps, and the technical and institutional approaches necessary for the responsible deployment of these technologies. Questions from participants were answered within the framework of the seminar.

## TƏDRİSDƏ TEXNOLOJİ VASİTƏLƏRDƏN İSTİFADƏ

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentində "Tədrisdə texnoloji vasitələrdən istifadə" mövzusunda seminar keçirildi. Seminara Buxara Dövlət Universitetinin (Özbəkistan) tamştat professoru, Webster Universiteti (ABŞ) və Xəzər Universitetinin isə qonaq professoru olan fəlsəfə elmləri doktoru Mehriniqor Əhmədova rəhbərlik etdi.

Seminar martın 13-də Xəzər Universitetinin Neftçilər kampusunda keçirildi və müasir tədris metodlarına maraq göstərən ingilis dili müəllimlərini bir araya gətirdi.

Seminar zamanı iştirakçılar müxtəlif texnologiya vasitələrinin tədris prosesinə necə effektiv şəkildə inteqrasiya edilə biləcəyini araşdırdılar. Praktiki yanaşmalara həsr olunmuş seminar iştirakçılara rəqəmsal resursların sinif auditoriyasında iştirakı necə artıra və tədris nəticələrini necə yaxşılaşdıra biləcəyini daha yaxşı anlamaqda kömək etdi.

Tədbir interaktiv və canlı mühitdə keçirildi, iştirakçılar isə fikir və təcrübələrini sərbəstcə bölüşdülər. Ümumilikdə, seminarda texnologiyanı tədrisə inteqrasiya etmək istəyən müəllimlər üçün dəyərli biliklər və faydalı üsullar təqdim edildi.



*Mehriniqor Əhmədova, Milana Abbasova*

## USE OF TECHNOLOGICAL TOOLS IN TEACHING

The Department of English Language and Literature at Khazar University held a seminar titled “Using Technology Tools in Teaching.” The session was delivered by Mekhrinigor Akhmedova, DSc, a full-time professor at Bukhara State University (Uzbekistan), and an adjunct professor at Webster University (USA) and Khazar University.

The seminar took place on March 13 at the Neftchilar Campus of Khazar University and brought together English language teachers interested in modern teaching practices.

During the session, participants explored how various technology tools can be effectively integrated into the teaching process. The seminar focused on practical approaches, helping attendees better understand how digital resources can enhance classroom engagement and improve learning outcomes.

The event was conducted in an interactive and engaging atmosphere, encouraging participants to exchange ideas and experiences. Overall, the seminar provided valuable insights and useful techniques for educators looking to incorporate technology into their teaching.



*Süleyman İsmayılov*

## "XƏZƏR"İN TƏLƏBƏSİ BEYNƏLXALQ TURNİRDƏ

Xəzər Universiteti Humanitar təhsil və sosial elmlər fakültəsinin politologiya ixtisası üzrə təhsil alan 1-ci kurs tələbəsi Süleyman İsmayılov martın 13-15-də keçirilmiş "Acropolis Wushu Open Tournament 2026" çərçivəsində təşkil olunan beynəlxalq uşu turniri və Vinqçun üzrə VI Dünya Kubokunda Azərbaycanı layiqincə təmsil edib.

İdmançı yüksək texniki hazırlıq və peşəkar döyüş səviyyəsi nümayiş etdirərək, yunan rəqibi üzərində inamlı qələbə qazanıb. Yarışın nəticələrinə əsasən, o, Vinqçun kateqoriyası üzrə I yerə layiq görülüb. Eyni zamanda, uşu sanda kateqoriyası üzrə də I yerə sahib olub.

Bu uğur Süleyman İsmayılovun  məqsədyönlü hazırlığının, əzmkarlığının və idman sahəsində qazandığı zəngin təcrübənin bariz göstəricisidir.

## KHAZAR UNIVERSITY STUDENT AT INTERNATIONAL TOURNAMENT

Suleyman Ismayilov, a first-year student majoring in Political Science at the School of Humanities and Social Sciences of Khazar University, represented Azerbaijan with distinction at the international wushu tournament and the 6th World Cup in Wing Chun, held within the framework of the "Acropolis Wushu Open Tournament 2026" from March 13 to 15.

Demonstrating a high level of technical preparation and professional combat performance, the athlete claimed a confident victory over his Greek opponent. Based on the competition results, he was awarded first place in the Wing Chun category. He also claimed first place in the wushu sanda category.

This achievement stands as a clear testament to Suleyman Ismayilov's purposeful training, determination, and extensive experience in sport.

## "KREŞENDO" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ İNFODESK

Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə martın 16-da "Kreşendo" layihəsi çərçivəsində məlumatlandırıcı İnfoDesk təşkil olunmuşdur.

Görüşün əsas məqsədi tələbələri "Kreşendo" layihəsinin təqdim etdiyi imkanlar barədə məlumatlandırmaq, onların şəxsi və peşəkar inkişafına dəstək olmaq, eyni zamanda gənclərin karyera planlamasına töhfə vermək olub.

Görüş zamanı tələbələr layihə çərçivəsində

## INFODESK WITHIN THE FRAMEWORK OF THE "CRESCENDO" PROJECT

An informational InfoDesk was organized on March 16, within the framework of the "Crescendo" project, under the auspices of the Career and Alumni Center of Khazar University.

The main objective of the meeting was to inform students about the opportunities offered by the "Crescendo" project, to support their personal and professional development, and to contribute to the career planning of young people.

During the meeting, students became closely acquainted with the training sessions, develop-

təşkil olunan təlimlər, inkişaf proqramları, mentorluq imkanları və müxtəlif əməkdaşlıq perspektivləri ilə yaxından tanış olublar. Bununla yanaşı, iştirakçılara layihəyə qoşulma qaydaları, seçim mərhələləri və iştirak şərtləri haqqında də geniş məlumat təqdim edilib, sualları ətraflı şəkildə cavablandırılıb.

Təqdimat zamanı layihə rəhbəri İlahə Mərdanova, satış komandasının rəhbəri Turanə Vəliyeva, satış komandasının üzvləri Telli Yaqubova, Şəfa Mirzəyeva, Lamiyə Hüseyinova, Əli Axundov və marketinq komandasının üzvü Aytac Abdullayeva tələbələrə layihənin əsas fəaliyyət istiqamətləri, həyata keçirilən proqramlar və gələcək planlar haqqında ətraflı məlumat vermişlər.

İnfoDesk ərzində tələbələr fərdi şəkildə məsləhətlər almaq, öz maraq dairələrinə uyğun inkişaf imkanlarını müəyyənləşdirmək və gələcək karyera yolları ilə bağlı ilkin istiqamət formalaşdırmaq imkanı əldə ediblər. Bu cür birbaşa ünsiyyət mühiti gənclərin layihəyə olan marağını daha da artırıb.

Qeyd edək ki, "Kreşendo" layihəsi gənclərin potensialının üzə çıxarılması, onların bilik və bacarıqlarının inkişaf etdirilməsi, həmçinin əmək bazarına daha hazırlıqlı şəkildə inteqrasiya olunmalarına dəstək məqsədi daşıyır.



ment programs, mentoring opportunities, and various cooperation prospects organized within the framework of the project. In addition, participants were provided with comprehensive information regarding the procedures for joining the project, the selection stages, and the conditions of participation, with their questions answered in detail.

During the presentation, project leader Ilaha Mardanova, sales team leader Turane Valiyeva, sales team members Telli Yagubova, Shafa Mirzayeva, Lamiya Huseynova, Ali Akhundov, and marketing team member Aytaj Abdullayeva provided students with detailed information about the project's main areas of activity, ongoing programs, and future plans.

During the InfoDesk, students had the opportunity to receive individual consultations, identify development opportunities aligned with their areas of interest, and gain initial guidance regarding their future career paths. This kind of direct communication environment further heightened the interest of young people in the project.

It should be noted that the "Crescendo" project aims to unlock the potential of young people, develop their knowledge and skills, and support their integration into the labor market in a more prepared manner.




## DEPARTAMENT MÜDİRİNİN MONOQRAFİYASININ AZƏRBAYCAN DİLİNDƏ YENİ NƏŞRİ

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyevin müəllifi olduğu "Modern Azərbaycanın doğuluşu" adlı monoqrafiyanın MİMTA nəşriyyatında Azərbaycan dilində yeni nəşri çap edilib.

Monoqrafiya Dos. Vəliyevin Türkiyə Respublikası Sakarya Universiteti siyasi elm və dövlət idarəçiliyi kafedrasında müdafiə etdiyi (2020) "Çarizm dövründə Azərbaycanda Millətləşmə Prosesi: 1850-1920-ci illər" adlı dissertasiyası əsasında hazırlanıb. Əvvəlcə türk və fars dillərində nəşr edilən monoqrafiya bu dəfə yeni adda oxuculura təqdim olunub.

Monoqrafiyada cümhuriyyət dövrü də daxil olmaqla, modern Azərbaycanda millət və dövlət inşası çex əsilli professor Miroslav Hroxun "Kiçik millət" nəzəriyyəsi çərçivəsində tədqiq edilib.

Kitabın akademik rəyçiləri Koç Universitetinin millətşünaslıq və müqayisəli siyasət sahəsində dünyanın aparıcı tədqiqatçılarından olan Prof. Şener Aktürk və Türkiyə Respublikasının İsveçrədəki fövqəladə və səlahiyyətli səfirinin təhsil üzrə müşaviri Prof. Bünyamin Bezcidir. Qeyd edək ki, Prof. Şener Aktürk kitab üçün son söz mətninin də müəllifidir.

## NEW AZERBAIJANI-LANGUAGE EDITION OF DEPARTMENT HEAD'S MONOGRAPH PUBLISHED

A new Azerbaijani-language edition of the monograph titled The Birth of Modern Azerbaijan, authored by Assoc. Prof. Orxan Valiyev, Head of the Department of Political Science and Philosophy at Khazar University, has been published by MIMTA Publishing House.

The monograph was prepared on the basis of Assoc. Prof. Valiyev's doctoral dissertation, defended in 2020 at the Department of Political Science and Public Administration of Sakarya University in the Republic of Türkiye, titled "The Nationalisation Process in Azerbaijan during the Tsarist Period: 1850–1920." Previously published in Turkish and Persian, the monograph is now presented to readers under a new title.

The monograph examines nation and state building in modern Azerbaijan, including the republican period, within the framework of the "Small Nation" theory developed by Czech-born professor Miroslav Hroch.

The academic reviewers of the book are Prof. Şener Aktürk, one of the world's leading researchers in the fields of nationalism studies and comparative politics at Koç University, and Prof. Bünyamin Bezci, adviser on education to the Ambassador Extraordinary and Plenipotentiary of the Republic of Türkiye to Switzerland. It should be noted that Prof. Şener Aktürk is also the author of the afterword to the book.

# “QADIN SAĞLAMLIĞI” MÖVZUSUNDA SEMİNAR

# SEMINAR ON "WOMEN'S HEALTH"



Aygün İsgəndərova



Xəzər Universitetinin Psixologiya departamentinin və Psixologiya klubunun təşkilatçılığı ilə martın 18-də  departamentin müəllimi, psixiatr Aygün İsgəndərova “Qadın sağlamlığı” mövzusunda seminarda çıxış edib.

Seminarda, o cümlədən,  qadın sağlamlığı sahədəsində aktual məsələlər, qadınların psixi və fiziki sağlamlığının qorunmasının əhəmiyyəti və bu istiqamətdə mövcud yanaşmalardan söz açılıb. Çıxışda qadınların həyat dövrləri üzrə sağlamlıq xüsusiyyətləri, hormonal balansının ümumi rifaha təsiri və gündəlik həyat tərzi amillərinin sağlamlığa təsiri kimi məsələlərə də  toxunulub. Eyni zamanda, qadın sağlamlığı ilə bağlı maarifləndirmənin artırılmasının vacibliyi, erkən diaqnostikanın rolu və profilaktik tədbirlərin əhəmiyyəti xüsusi vurğulanıb. Mövzu, həmçinin, psixoloji rifah aspektindən də dəyərləndirilib, qadınların emosional vəziyyətinin fiziki sağlamlıqla qarşılıqlı əlaqəsi qeyd olunub.

Tədbir iştirakçıları mövzu ilə bağlı suallarını ünvanlayaraq, interaktiv fikir mübadiləsi aparıb, aktual yanaşmalar və peşəkar təcrübələr barədə məlumat alıblar.

On March 18, Aygun Iskandarova, a faculty member of the Department of Psychology and psychiatrist, delivered a presentation at a seminar titled "Women's Health," organized by the Department of Psychology and the Psychology Club of Khazar University.

The seminar addressed current issues in the field of women's health, the importance of safeguarding women's mental and physical well-being, and existing approaches in this area. The presentation also touched upon health characteristics across different stages of women's lives, the impact of hormonal balance on overall well-being, and the influence of daily lifestyle factors on health. Particular emphasis was placed on the importance of raising awareness about women's health, the role of early diagnosis, and the significance of preventive measures. The topic was also examined from the perspective of psychological well-being, with attention drawn to the interrelationship between women's emotional state and physical health.

Participants addressed their questions on the subject, engaging in interactive discussion and gaining insights into current approaches and professional experiences.

## "XƏZƏR"DƏ MƏZUNLARLA GÖRÜŞ



*Hamlet İsaxanlı*

Xəzər Universitetinin 35 illik yubiley tədbirləri çərçivəsində martın 19-da universitetin Mərmər zalında "Xəzər": məzunların, tələbələrin və gələcəyin görüşdüyü yer" mövzusunda məzunların iştirakı ilə görüş keçirildi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı çıxış edərək, bugünkü görüşün əhəmiyyətini qeyd etdi və bildirdi ki, məzun kimi universitetdən ayrılanlar indi dost kimi qayıdıblar. Universitetin yaranma tarixindən, bu yolda qarşıya çıxan çətinliklərdən, problemlərdən söz açan H. İsaxanlı xüsusi vurğuladı ki, belə bir təhsil ocağının-ingilisdilli özəl bir universitetin açılmasına cəmiyyətin özünün ehtiyacı var idi. Bu gün artıq "Xəzər"in fəaliyyətə başlamasından 35 il ötür. Qazanılan uğurların göz önündə olduğunu bildirən Hamlet İsaxanlı hökumət qərarı ilə yaradılan bu təhsil ocağının 35 il ərzində böyük inkişaf yolu keçdiyini, məzunlarının sorağının bir çox ölkələrdən gəldiyini, bir çox ölkələrdən də müəllimlərin, tələbələrin Xəzər Universitetində çalışdığını, oxuduğunu xüsusi qeyd etdi.Vurğuladı ki, universitetimizin gücü həm də onun mühitində, ailə, dostluq münasibətlərindədir.

"Xəzər"in imzası" sənədli filminin nümayişindən sonra Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva çıxış etdi. Bildirdi ki, bu günlər bayram- bayrama qarışıb- həm 35 illik yubileyimiz, həm Novruz və Ramazan bayramları, həm də məzunlarla görüş. Dr. R.

## MEETING WITH ALUMNI AT "KHAZAR"

Within the framework of Khazar University's 35th anniversary events, a meeting on the theme "Khazar: A Place Where Alumni, Students and the Future Meet" was held on March 19, in the Marble Hall of the university, with the participation of alumni.

Prof. Acad. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, delivered a speech, highlighting the significance of the day's meeting and noting that those who had once left the university as graduates have now returned as friends. Speaking about the history of the university's founding, the difficulties and challenges encountered along the way, Isakhanli emphasized that society itself had a need for such an educational institution — an English-language private university. Today, 35 years have passed since "Khazar" began its operations. Noting that the achievements gained are plain to see, Hamlet Isakhanli particularly stressed that this institution of higher education, established by government decree, has undergone tremendous development over the course of 35 years, that its graduates are sought after in many countries, and that teachers and students from numerous countries work and study at Khazar University. He underscored that the strength of our university also lies in its environment and in its family-like and friendly relations.



Following the screening of the documentary film "The Signature of Khazar," Khazar University Rector Dr. Razia Isaeva delivered a speech. She noted that these days one celebration follows another - the 35th anniversary, the Nowruz and Ramadan holidays, and the meeting with alumni. Dr. Isaeva spoke about the path of development the university has taken over the



Raziyə İsayeva

İsayeva universitetin ötən illər ərzində keçdiyi inkişaf yolundan, mövcud tədris strukturundan danışaraq, xüsusi vurğuladı ki, Xəzər Universiteti ölkəmizin 4 aparıcı tədqiqat universitetindən biridir.

Çıxış edən Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva da görüşün vacibliyini və məzunlara xoş arzularını bildirdi.

Söz alan məzunlar Xəzər Universitetinin onların həyatında mühüm rol oynadığını qeyd etdilər və belə bir görüş üçün universitet rəhbərliyinə təşəkkürlərini bildirdilər.

years and its current academic structure, particularly emphasizing that Khazar University is one of the four



Zərifə Əliyeva

leading research universities in our country.

Director of Carrier and Alumni Center Zarifa Aliyeva who took place in the event, stressed the importance of meeting and expressed best wishes to alumni.

The alumni who took the floor noted that Khazar has played a significant role in their lives and expressed their gratitude to the university administration for organizing such a meeting.

## DEPARTAMENT MÜDİRİ APREL DÖYÜŞLƏRİ İLƏ BAĞLI RADİO VERİLİŞİNDƏ

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev aprelin 1-də "CBC FM Azerbaijan" radiosunun "Səhər saatı" verilişinin "Aprel döyüşlərindən 10 il ötür" adlı xüsusi buraxılışında qonaq olub.

O. Vəliyev Aprel döyüşlərinin Azərbaycanın hərb tarixindəki əhəmiyyətindən danışıb, bu döyüşlərin böyük qələbənin qazanılmasında mühüm rol oynadığını xüsusi vurğulayıb.




Orxan Vəliyev

## DEPARTMENT HEAD FEATURED IN RADIO PROGRAMME ABOUT APRIL BATTLES

Assoc. Prof. Orxan Valiyev, Head of the Department of Political Sciences and Philosophy at Khazar University, appeared as a guest on April 1, 2026, in a special broadcast titled "10 Years Since the April Battles" on the morning programme "Seher saati" of CBC FM Azerbaijan radio.

Valiyev spoke about the significance of the April Battles in Azerbaijan's military history, placing particular emphasis on the pivotal role these battles played in achieving the great victory.

*Link: https://www.youtube.com/live/AL0M4j3BfwI?si=BVNffLclZv0kQO3h*



**Leyla Mustafayeva**
*Bakı Slavyan Universitetinin*
*İctimai elmlər kafedrasının baş müəllimi*

# İNSAN FƏLSƏFƏSİ

Fəlsəfi sistemlərdə, bir qayda olaraq, təbiət, insan və cəmiyyət qarşılıqlı vəhdətdə araşdırılır. Ümumi fəlsəfi baxımdan insan, ilk növbədə, həm təbiətin, həm də cəmiyyətin ayrılmaz hissəsi kimi təqdim edilir. Aydındır ki, insan təbiətin uzun tarixi inkişafı nəticəsində təkmilləşərək, varlığın yüksək bir təcəssümü kimi meydana çıxmışdır. Buna görə də gündəlik danışıqda tez-tez belə deyilir: "insan varlığın əşrəfidir".

Lakin insanın həqiqi mahiyyəti yalnız onun təbii və ya bioloji varlıq olması ilə ölçülmür. İnsan ictimai münasibətlər sistemində öz fərdi rolunu müəyyənləşdirərkən, eyni zamanda öz xarakterini formalaşdırır. Bu səbəbdən, insan haqqında konkret danışmaq üçün onun xarakterini müəyyənləşdirmək vacibdir.

Ailə, məktəb və müxtəlif əmək kollektivləri kimi sosial mühitlərdə insanın nümayiş etdirdiyi əxlaqi və ictimai faydalı xüsusiyyətlər onun bir cəmiyyət üzvü kimi formalaşmasını şərtləndirir. İnsan cəmiyyətdəki yeri, onun ictimai faydalı fəaliyyəti və münasibətlər sistemində özünü reallaşdırmaq imkanları baxımından qiymətləndirilir. Xarakterə müxtəlif təriflər verilsə də, ən ümumi mənada, insanın ictimai münasibətlərdə və fəaliyyətində fərdiləşən xüsusiyyətlərinin məcmusuna xarakter deyilir.

İnsan fəlsəfəsinin qayəsini həyatın mənası sualı təşkil edir. Ümumiyyətlə, həyat nədir? Həyat bütün canlı varlıqların mövcudluq formasıdır. İnsan, heyvan və bitki həyatı arasında müəyyən fərqlər mövcuddur. Bu fərqlərin başlıca xüsusiyyəti kimi insanı digərlərindən ayıran onun ruhudur. İnsan düşünən və dünyanı dəyişdirməyi bacaran varlıqdır. İnsanın bütün fəaliyyəti məqsədyönlüdür və onun həyatı dəyişdirmək qabiliyyəti ilə ölçülür. Yəni insan bir tərəfdən təbiət və cəmiyyətdən asılıdırsa, digər tərəfdən onlara təsir göstərmək imkanına da malikdir. Hər bir fəaliyyət niyyətdən başlayır. Necə deyərlər, "niyyətin hara, mənzilin ora". Zərdüştlükdə belə bir üçlük mövcuddur - xeyirxah niyyət, xeyirxah fikir və xeyirxah əməl. Niyyətin gerçəkləşməsi ağıllı mühakimə ilə şərtlənir. Onun düzgünlüyünü isə praktika təsdiqləyir. Beləliklə, praktika və nəzəriyyə bir-birini tamamlayır. İnsanın fəaliyyəti ağıl ilə idarə olunduğuna görə, həm sözdə, həm də əməldə ağıla uyğunluq əsas götürülür.

"Məna" dedikdə hər hansı predmetin və ya fəaliyyətin mahiyyəti nəzərdə tutulur. Fəlsəfə də məhz gerçəkliyin zahiri tərəflərindən çox, onun mahiyyətini araşdırır və müəyyənedici amilləri üzə çıxarır. Bu səbəbdən həyatın mənasını yalnız zahiri təzahürlərdə axtarmaq düzgün deyil. Məsələn, maddi nemətlərdən istifadə etmək, ani məmnunluq hissləri yaşamaq və ya əyləncəyə qapılmaq həyatın əsl mənası hesab edilə bilməz. Həyatın mənası, ilk növbədə, insanın arzularına və ideallarına uyğun şəkildə öz həyatını qurmasındadır. Əsl məna əməl ilə düşüncənin, iş ilə zəkanın uyğunluğunda meydana çıxır. Məsələn, Aristotel qeyd edirdi ki, insanın fəaliyyəti onun ağlı ilə qəlbinin birgə fəaliyyətidir. Məhz burada həyatın mənasını axtarmaq mümkündür.

Bütün bunlar göstərir ki, insan ictimai varlıqdır. İnsan cəmiyyət üçün nə qədər faydalı fəaliyyət göstərirsə, əslində bunu özü üçün də edir. Həyatı yaxşılığa doğru dəyişdirən insan, eyni zamanda özünü də yaxşılığa doğru dəyişmiş olur. Burada iki əsas cəhəti qeyd etmək lazımdır: birincisi, insanın zahiri münasibətlər forması, ikincisi isə onun mənəvi aləmidir. Əlbəttə, zahiri və daxili aləm bir-birindən fərqlənir. Lakin əsas məsələ onların bir-birini tamamlamasıdır.

İmmanuel Kant belə hesab edirdi ki, insan düşünərkən yalnız zahiri dünyanı deyil, eyni zamanda öz daxili aləmini də dərk etməyə çalışır. Biz xarici aləmi yalnız özümüzü dərk etdiyimiz səviyyədə qavraya bilərik. Özünü dərk etmədən ətraf mühit haqqında həqiqi bilik əldə etmək mümkün deyil. Bu baxımdan "həyatın mənası nədir?" sualına belə cavab vermək olar: həyatın mənası özünü dərk edən insanın şüurlu şəkildə ictimai faydalı münasibətlər sistemi qurmasındadır. Bu münasibətlər sistemi ailədən başlayaraq, dövlətə qədər bütün sosial sahələri əhatə edir. Burada fərdi şüurun ictimai şüur səviyyəsinə yüksəlməsi, insanın cəmiyyət və dövlətlə vəhdət təşkil etməsi mühüm rol oynayır. Digər tərəfdən, "fərd" və "şəxs" anlayışları eyni məzmunu ifadə edir, yəni insana aiddir. Lakin şəxsiyyət anlayışı insanın düşünən "mən"indən başlayır. "Mən" fərdi xarakter daşısa da, digər "mən"lərlə qarşılıqlı əlaqədə mövcuddur. İnsan başqalarının mühitində yaşayır və məhz bu mühitdə öz xarakterik xüsusiyyətlərini göstərir.

Şəxsiyyət anlayışını konkretləşdirərək demək olar ki, şəxsiyyət yüksək məqsədləri qarşısına qoyan və bu məqsədlərə çatmaq üçün sistemli fəaliyyət göstərən insandır. Belə insan öz ideallarına və mənəvi dəyərlərinə sadiq olur. Onun həyat yolu heç də həmişə asan olmur; çətinlikləri aradan qaldırmaq və fəaliyyətin nəticələrini öncədən görmək qabiliyyəti şəxsiyyətin mühüm xüsusiyyətlərindəndir. Bu səbəbdən deyilir ki, şəxsiyyət təkrarolunmazdır. Müxtəlif şəxsiyyət tipləri mövcuddur: güclü şəxsiyyət, ziyalı şəxsiyyət və sadə şəxsiyyət. Bəzən güclü şəxsiyyət anlayışı yanlış olaraq yalnız iradə və ya güc ilə əlaqələndirilir. Halbuki, həqiqi güclü şəxsiyyət yaradıcı şəxsiyyətdir. Bu mənada elm və sənət sahəsində böyük yaradıcılıq göstərən insanlar, eyni zamanda böyük şəxsiyyətlər hesab olunur.

**Ədəbiyyat siyahısı**

*Aristotle. (1999). Nicomachean ethics (W.D.Ross, Trans). Kitchener: Batoche Books.*

*Aristotle. (1999). Politics (B. Jowett, Trans.). Kitchener: Batoche Books.*

*Kant, I. (2002). Critique of practical reason (W. S. Pluhar, Trans.; S. Engstrom, Intro.). Indianapolis: Hackett Publishing Company.*

*Kant, I. (1929). Critique of pure reason (N. Kemp Smith, Trans.). London, UK: Macmillan and Co., Ltd.*

*Mengüşoğlu, T. (1988). İnsan felsefesi. İstanbul: Remzi Kitabevi Yayınları.*

# XƏZƏR UNİVERSİTETİ NÜMAYƏNDƏ HEYƏTİNİN ÇİNƏ İŞGÜZAR SƏFƏRİ



*Raziyə İsayeva*

# BUSINESS VISIT OF KHAZAR UNIVERSITY DELEGATION TO CHINA

Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva və Elmi işlər üzrə prorektoru Dr. Ülkər İsaeva martın 2-5-də Çin Xalq Respublikasına işgüzar səfər ediblər. Səfərin məqsədi aparıcı Çin universitetləri və elmi-tədqiqat mərkəzləri ilə akademik əməkdaşlıq imkanlarını genişləndirmək və birgə tədqiqat

A delegation of Khazar University, comprising Rector Dr. Razia Isaeva and Vice-Rector for Academic Affairs Dr. Ulkar Isaeva, undertook a business visit to the People's Republic of China from March 2–5. The purpose of the visit was to expand opportunities for academic cooperation with leading Chinese




*Ülkər İsayeva*

layihələri üzrə tərəfdaşlığı inkişaf etdirmək olub.

Səfər çərçivəsində nümayəndə heyəti Şanxay Jiaotong Universiteti, Şanxay Xarici Dillər Universiteti və Fudan Universitetində bir sıra görüşlər keçirib. Görüşlərdə universitetlər arasında strateji tərəfdaşlığın inkişafı, birgə tədris proqramları, tədqiqat və innovasiya sahələrində əməkdaşlıq imkanları müzakirə olunub. Nümayəndə heyəti, həmçinin, Jiaotong Universitetinin Kompüter elmləri və mühəndislik fakültəsi, Süni Ümumi Zəka İnstitutu, Fudan Universitetinin Fudan Çjantszyan (Zhangjiang) Tədqiqat İnstitutu, Beyin əsaslı Zəka üzrə Elm və Texnologiya İnstitutu və Materialşünaslıq departamentində olub.

Nümayəndə heyəti Fudan Universitetinin Çjantszyan (Zhangjiang) Yüksək texnologiyalar parkına baş çəkib və Çjantszyan (Zhangjiang) Yüksək texnologiyalı inteqral sxemlər və Biotibbi parkın (Zhangjiang Hi-Tech Integrated Circuit and Biomedical Park) fəaliyyəti ilə tanış olub. Heyətin Çjantszyan Beynəlxalq Beyin Görüntüləməsi Mərkəzində (Zhangjiang International Brain Imaging Centre) və Qlobal

(*Ardı səh.60-da*)



universities and research centers, and to develop partnerships on joint research projects.

During the trip, the delegation held a series of meetings at Shanghai Jiao Tong University, Shanghai International Studies University, and

(*To be continued page 60*)






Süni İntellekt İnnovativ İdarəetmə Mərkəzində də (Center for Global AI Innovative Governance) görüşləri olub. Keçirilən dəyirmi masada neyroelm və süni intellekt sahələrində birgə tədqiqat və tədris əməkdaşlığı məsələləri müzakirə edilib və əməkdaşlığa dair razılığa gəlinib.

Səfər çərçivəsində nümayəndə heyəti Jiatong Universiteti Tibb fakültəsi ilə də görüş keçirərək, fakültənin fəaliyyəti, tədqiqat imkanları və laboratoriyaları ilə tanış olub. Görüşdə tələbə mübadiləsi, birgə tədqiqat layihələri və təqaüd proqramları kimi əməkdaşlıq imkanları müzakirə edilib.

Xəzər Universiteti nümayəndə heyətinin Çinə səfəri universitetin beynəlxalq əməkdaşlıq strategiyasının genişləndirilməsi və Asiyanın aparıcı universitetləri ilə akademik əlaqələrin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Fudan University. The meetings focused on discussions regarding the development of strategic partnerships between the universities, joint academic programs, and opportunities for collaboration in the fields of research and innovation. The delegation also visited the School of Computer Science and Engineering and the Institute for Artificial General Intelligence at Jiao Tong University, as well as Fudan University's Fudan Zhangjiang Research Institute, the Institute of Science and Technology for Brain-Inspired Intelligence, and the Department of Materials Science.

The delegation visited Fudan University's Zhangjiang Hi-Tech Park and familiarized itself with the operations of the Zhangjiang Hi-Tech Integrated Circuit and Biomedical Park. Meetings were also held at the Zhangjiang International Brain Imaging Centre and the Center for Global AI Innovative Governance. Round table discussions addressed matters of joint research and academic cooperation in the fields of neuroscience and artificial intelligence, with an agreement on collaboration being reached.

As part of the visit, the delegation also met with the School of Medicine at Jiao Tong University, gaining insight into the school's activities, research capabilities, and laboratory facilities. The meeting covered potential areas of cooperation, including student exchange programs, joint research projects, and scholarship initiatives.



The visit to China is of significant importance in terms of expanding the international cooperation strategy and strengthening academic ties with leading universities across Asia.

# SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜDİRİNİN AMERİKA SƏFƏRİ

# AMERICA VISIT OF HEAD OF DEPARTMENT OF POLITICAL SCIENCE AND PHILOSOPHY



*Orxan Vəliyev*

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev ABŞ Dövlət Departamentinin Təhsil və Mədəniyyət Bürosu tərəfindən 14 fevral – 7 mart aralığında təşkil edilən Beynəlxalq ziyarətçilərin liderlik proqramı (IVLP) çərçivəsində ABŞ-da səfərdə olub.

Builki proqram "ABŞ xarici siyasəti və qlobal çağırışlar" mövzusuna həsr olunub və Azərbaycanın da qurucuları arasında yer aldığı "Sülh Şurası"nın (Board of Peace) inauqurasiya toplantısı ilə eyni vaxta təsadüf edib. 1940-cı ildən etibarən həyata keçirilən proqramın digər özəlliyi

(*Ardı səh.62-də*)

The Head of the Department of Political Science and Philosophy at Khazar University, Assoc. Prof. Orkhan Valiyev, traveled to the United States as part of the International Visitor Leadership Program (IVLP), organized by the Bureau of Educational and Cultural Affairs of the U.S. Department of State, from February 14 to March 7.

This year's program was dedicated to the theme "U.S. Foreign Policy and Global Challenges" and coincided with the inaugural meeting of the "Board of Peace," among whose founding members Azerbaijan holds a place. Another dis-

(*To be continued page 62*)

isə bu dəfəki tədbirin ABŞ-ın 4 iyul 1776-cı ildə elan edilmiş müstəqilliyinin 250 illiyi ərəfəsinə təsadüf etməsi olub.

Dos. Orxan Vəliyev proqram çərçivəsində əvvəlcə Vaşinqton şəhərinə, daha sonra isə Ohayo ştatının Klivlend, Kentaki ştatının Luivil və Kolorado ştatının Denver şəhərlərinə səfər edib.

Proqramda Azərbaycan, Türkiyə, Ermənistan, İtaliya, İsveç, Malta, Slovakiya, Almaniya, Lüksemburq, Polşa, İspaniya, Latviya və Çex Respublikasını təmsil edən iştirakçılar yer alıblar. Onlar akademiya, dövlət qurumları, jurnalistika və qeyri-hökumət təşkilatları kimi, müxtəlif sahələrdən seçilmiş peşəkarlardan ibarət olub.

16 fevral rəsmi bayram gününə təsadüf etdiyindən, heyətlə ilkin tanışlıqdan sonra Vaşinqton şəhəri üzrə tur təşkil olunub. Tur çərçivəsində Ağ Ev, ABŞ Konqresinə baş çəkilib, Linkoln Memorialı və Martin Lüter Kinq abidəsi ziyarət edilib.

17 fevraldan etibarən Vaşinqton proqramının intensiv mərhələsinə start verilib. İlk olaraq, iştirakçılar proqramın təşkilində mühüm rol oynayan Meridian Beynəlxalq Mərkəzində (Meridian International Center) olublar. Daha sonra Müharibə Departamenti (Pentaqon), Dövlət Departamenti, Konqres Araşdırma Servisi, ABŞ Dövlət Kommersiya Departamenti, Amerika Sahibkarlıq İnstitutu və Amerika Universiteti ilə rəsmi görüş və toplantılar keçirilib.

Amerika Universitetində akademik heyətlə keçirilən görüşlə yanaşı, ABŞ və Avropanın müxtəlif ölkələrindən olan tələbələrlə müzakirələr aparılıb.

21–25 fevralda isə Ohayo ştatının Klivlend şəhərində proqramın ikinci mərhələsi başlanıb. Klivlenddə bir sıra qurumlarda görüşlər təşkil olunub. Bunlar arasında Klivlend Şurası, “Case Western Reserve” Universiteti (“Think [Box] & LaunchNet”), Beynəlxalq Strateji Analiz Mərkəzi (ISA), Klivlend Portu, Klivlend Federal Rezerv Bankı və Klivlend İncəsənət Muzeyi yer alıb.

Bu qurumlarla keçirilən iki görüş xüsusilə diqqət çəkib. Bunlardan biri tədqiqat sahəsində dünyada nüfuzlu mövqeyə malik “Case Western Reserve” Universitetinə səfər, digəri isə Kent Dövlət Universitetində görüş olub.

“Case Western Reserve” Universitetində gö-

tinguishing feature of the program, which has been in operation since 1940, was that this year's event coincided with the eve of the 250th anniversary of the United States' declaration of independence on July 4, 1776.

As part of the program, Assoc. Prof. Orkhan Valiyev first visited Washington, D.C., followed by Cleveland in the state of Ohio, Louisville in the state of Kentucky, and Denver in the state of Colorado.

The program brought together participants representing Azerbaijan, Türkiye, Armenia, Italy, Sweden, Malta, Slovakia, Germany, Luxembourg, Poland, Spain, Latvia, and the Czech Republic - professionals drawn from diverse fields including academia, government institutions, journalism, and non-governmental organizations.

Since February 16 fell on an official public holiday, an introductory city tour of Washington, D.C. was organized for the delegation. The tour included visits to the White House, the U.S. Capitol, the Lincoln Memorial, and the Martin Luther King Jr. Memorial.

The intensive phase of the Washington program commenced on February 17. Participants first visited the Meridian International Center, which played a key role in organizing the program. This was followed by official meetings and sessions at the Pentagon, the U.S. Department of State, the Congressional Research Service, the U.S. Department of Commerce, the American Enterprise Institute, and American University.The second phase of the program began in Cleveland, Ohio, from February 21 to 25. A series of institutional visits were organized in Cleveland, including the Cleveland Council, Case Western Reserve University (Think[Box] & LaunchNet), the International Strategic Analysis Center (ISA), the Port of Cleveland, the Federal Reserve Bank of Cleveland, and the Cleveland Museum of Art.

Two of these visits were of particular note: a visit to Case Western Reserve University, which holds a distinguished position in global research, and a meeting at Kent State University.

The meeting at Case Western Reserve University took place at its innovation center. Participants attended a lecture on the center's acti-

rüş innovasiya mərkəzində keçirilib. İştirakçılar Prof. Michael Goldbergin rəhbərliyi ilə innovasiya mərkəzinin fəaliyyəti haqqında mühazirə dinləyib, eyni zamanda, universitetin laboratoriyaları ilə tanış olublar. Mühazirədən sonra mərkəzin müxtəlif mərtəbələri və burada həyata keçirilən layihələr barədə ətraflı məlumat verilib.

Səfər çərçivəsində Kent Dövlət Universitetinin siyasi elmlər kafedrasında doktorantura təhsili alan həmyerlimiz Cavadbəy Xəlilzadə ilə də görüş olub. Görüş zamanı universitetin kampusuna, siyasi elmlər kafedrası və universitet kitabxanasına da baş çəkilib

Səfərin son günü iştirakçılar IVLP proqramı çərçivəsində başqa proqramla Klivlenddə olan Moldova nümayəndə heyətinin də qatıldığı geniş şəbəkələşmə toplantısında iştirak ediblər.

Proqramın üçüncü hissəsi 25 fevral – 2 mart aralığında Kentaki ştatının Luivil şəhərində başlanıb. Səfər çərçivəsində Luivil Beynəlxalq Münasibətlər Komitəsi, Cənubi İndiana və River Ridge İnkişaf Mərkəzi, Beynəlxalq Məhəmməd Əli Mərkəzi, Kentaki At Parkı və Muzeyi, Kentaki YMCA Gənclər Assosiasiyası, Kentaki İqtisadi İnkişaf Assosiasiyası və Kentaki İstehsalatçılar Birliyi kimi, qurumlara səfərlər təşkil olunub.

İştirakçılar, həmçinin, Beynəlxalq Məhəmməd Əli Mərkəzi və Kentaki At Parkı və Muzeyinə baş çəkiblər. Kentaki YMCA Assosiasiyasında keçirilən tədbirdə iştirakçılar 8 min orta məktəb şagirdinin üzv olduğu proqramda tələbələrin BMT simulyasiya oyunlarını izləmək imkanı əldə ediblər.

Luivil şəhərində səfərin maraqlı məqamlarından biri isə təqaüddə olan Prof. Gloria Murrayın evində təşkil olunan “qonaqpərvərlik şam yeməyi” (hospitality dinner) olub.

3 mart tarixində Koloradonun paytaxtı Denver şəhərinə səfər başlanıb.

7 marta qədər davam edən Denver proqramı çərçivəsində iştirakçılar Denver Universitetinin məşhur Jozef Korbel Mərkəzində, Metropoliten Dövlət Universitetinin Kiber Təhlükəsizlik Mərkəzində, Kolorado Ştatı dövlət binasında və Rocky Mountain Milli Parkında olublar.

Proqramın sonunda qrup rəhbərləri iştirakçılara ABŞ Dövlət Departamentinin proqram məzunu olduqlarını təsdiq edən nişan təqdim ediblər.

vities led by Prof. Michael Goldberg and were introduced to the university's laboratories. Following the lecture, a detailed tour of the center's various floors and ongoing projects was provided.

As part of the visit, a meeting also took place with Javadboy Khalilzade, a fellow Azerbaijani citizen pursuing doctoral studies in the Department of Political Science at Kent State University. The visit included a tour of the university campus, the Department of Political Science, and the university library.

On the final day in Cleveland, participants took part in an extended networking event joined by a Moldovan delegation also present in Cleveland under a separate IVLP program.

The third phase of the program commenced in Louisville, Kentucky, from February 25 to March 2. Visits were organized to a number of institutions, including the Louisville International Relations Committee, Southern Indiana and the River Ridge Development Authority, the Muhammad Ali Center, the Kentucky Horse Park and Museum, the Kentucky YMCA Youth Association, the Kentucky Economic Development Association, and the Kentucky Manufacturers Association.

Participants also visited the Muhammad Ali Center and the Kentucky Horse Park and Museum. At an event held at the Kentucky YMCA, participants had the opportunity to observe students from a program with 8,000 high school members participating in United Nations simulation exercises.

One of the highlights of the Louisville visit was a hospitality dinner hosted at the home of retired Prof. Gloria Murray.

On March 3, the delegation traveled to Denver, the capital of Colorado.

The Denver program, which continued through March 7, included visits to the renowned Josef Korbel School at the University of Denver, the Cybersecurity Center at Metropolitan State University, the Colorado State Capitol, and Rocky Mountain National Park.

At the conclusion of the program, group leaders presented participants with a pin certifying their status as alumni of the U.S. Department of State's IVLP program.

## XƏZƏR UNİVERSİTETİNİN MƏZUNU TAĞI MƏMMƏDOV ÇİNDƏ DOKTORANTURA TƏHSİLİNİ DAVAM ETDİRİR

Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin bakalavr məzunu Tağı Məmmədov beynəlxalq akademik mühitdə əldə etdiyi uğurlarla seçilən gənc məzunlarımızdandır. O, magistr təhsilini




*Tağı Məmmədov*

Çin Xalq Respublikasının Beijing Texnologiya İnstitutunda uğurla başa vurmuş, hazırda isə həmin ölkədə Jiangsu Universitetində PhD səviyyəsində təhsilini davam etdirir.

Ötən il Tağı Çin Beynəlxalq Televiziya proqramına dəvət olunaraq, dünya tamaşaçıları ilə Çindəki həyat təcrübəsini bölüşüb. Elə həmin

## KHAZAR UNIVERSITY GRADUATE TAGHI MAMMADOV PURSUES PH.D. STUDIES IN CHINA

Taghi Mammadov, a bachelor's graduate of the Faculty of Economics and Management at Khazar University, is among our young alumni who have distinguished themselves through achievements in the international academic arena. He successfully completed his master's degree at the Beijing Institute of Technology in the People's Republic of China and is currently pursuing his PhD studies at Jiangsu University in the same country.

Previous year Taghi was invited to appear on China International Television, where he shared his experience of living in China with audiences

il o, Azərbaycan Dövlət Televiziyası və digər aparıcı media qurumlarına verdiyi müsahibələrdə də vətənindəki insanlara Çində təhsil və həyat barədə danışıb. Həmçinin o, Jiangsu Universiteti Partiya Komitəsinin Təbliğat Şöbəsi tərəfindən yayımlanmış rəsmi qərara əsasən, 2025-ci il üzrə universitetdə "Kampusun Yaxşı Netizeni" ("校园好网民") fəxri ada layiq görülmüşdür. Belə ki, universitet üzrə cəmi 10 nəfər tələbə bu fəxri ada layiq görülmüşdür. Tağı bu fəxri ada layiq görülən tələbələr arasında universitet üzrə yeganə xarici tələbə idi. O, Xaricdə Təhsil İnstitutunu təmsil edərək, "Şəbəkədə müsbət enerji" ("网正能量") kateqoriyası üzrə fərdi şəkildə mükafatlandırılmışdır. Bu mükafat universitetin rəqəmsal mühitdə sağlam, məsuliyyətli və nümunəvi fəaliyyət göstərən tələbələri təşviq etməsi baxımından mühüm əhəmiyyət daşıyır. Eyni zamanda, xarici tələbələrin də Çindəki universitet mühitində önəmli rol oynadığını nümayiş etdirən dəyərli bir nümunədir.

Bu yaxınlarda Tağı qış tətili ilə əlaqədar vətəndə olduğu zaman, Chinese Bridge House youtube kanalına müsahibə vermişdir. Belə ki, öz müsahibəsində o, akademik və peşəkar yolunun məhz Xəzər Universitetində formalaşmağa başladığını xüsusi vurğulayır. O qeyd edir ki, universitetdə təqdim olunan əlavə xarici dil imkanları və beynəlxalq mühitə açıq təhsil yanaşması onun xaricdə təhsil almasına və qlobal akademik mühitə inteqrasiyasına mühüm töhfə verib.

Məzunumuzun hekayəsi hazırkı tələbələr üçün motivasiyaedici nümunədir. Tağı gənclərə fürsətləri vaxtında dəyərləndirməyi, əlavə dillər öyrənməkdən çəkinməməyi, məqsədyönlü və səbrli olmağı tövsiyə edir. Onun sözlərinə görə, bu gün atılan kiçik addımlar gələcəkdə insanı dünyanın ən uzaq nöqtələrinə aparan böyük uğurlara çevrilə bilər.

Tağı Məmmədovun müsahibəsi aşağıdakı linkdə:

around the world. That same year, he spoke about education and life in China in interviews given to Azerbaijan State Television and other leading media outlets. Furthermore, based on an official resolution issued by the Propaganda Department of the Jiangsu University Party Committee, he was honored with the title of "Best Campus Netizen" ("校园好网民") for the year 2025. Only ten students university-wide received this distinction. Taghi was the sole international student among those honored. Representing the Institute for International Students, he was individually recognized in the "Positive Energy Online" ("网正能量") category. This award carries significant importance as it reflects the university's commitment to encouraging students who demonstrate healthy, responsible, and exemplary conduct in the digital environment. It also serves as a valuable example demonstrating that international students play a meaningful role within the university community in China.

Recently, while visiting his homeland during the winter holiday, Taghi gave an interview to the YouTube channel Chinese Bridge House. In the interview, he particularly emphasized that his academic and professional journey began to take shape at Khazar University. He noted that the additional foreign language oppjortunities offered at the university, along with its internationally oriented approach to education, made a significant contribution to his pursuit of studies abroad and his integration into the global academic environment.

Our graduate's story serves as an inspiring example for current students. Taghi advises young people to seize opportunities in a timely manner, to embrace the learning of additional languages, and to remain goal-oriented and patient. In his words, the small steps taken today can transform into great achievements that carry a person to the farthest corners of the world.

Taghi Mammadov's interview is available at the link below:

*https://www.youtube.com/watch?v=av8dbY7Jg-Q*

# "XƏZƏR"İN MƏZUNU KOREYA UNİVERSİTETİNDƏ FƏLSƏFƏ DOKTORU ELMİ DƏRƏCƏSİ ALIB

# KHAZAR UNIVERSITY GRADUATE EARNS PHD DEGREE FROM KOREA UNIVERSITY

Xəzər Universitetinin Tarix və coğrafiya müəllimliyi ixtisası üzrə 2016-cı il bakalavr məzunu Günay Kərimova Cənubi Koreyanın Koreya Universitetində (Korea University, Seoul, South Korea) doktorluq dissertasiyasını uğurla müdafiə edərək , Ətraf Mühit Elmləri və Ekoloji Mühəndislik (Environmental Science & Ecological Engineering) ixtisası üzrə Fəlsəfə doktoru (PhD) elmi dərəcəsi alıb.

Onun dissertasiya mövzusu "Diflubenzuron insektisidi və polilaktik turşu (PLA) əsaslı mikroplastiklərin Daphnia magna üzərində birgə toksik təsiri: humik turşunun və ultrabənövşəyi (UV) aşınmanın rolu" ("Combined Toxicity of the Insecticide Diflubenzuron and Polylactic Acid Microplastics on Daphnia magna: Role of Humic Acid and UV Weathering") adlanır. Tədqiqatda insektisid diflubenzuron və polilaktik turşu əsaslı mikroplastiklərin su ekosistemlərində yaşayan Daphnia magna orqanizminə birgə toksik təsiri, həmçinin , humik turşunun və UV şüalanmanın bu prosesdə rolu araşdırılıb. Mövzu su ekosistemlərinin qorunması və su keyfiyyətinin qiymətləndirilməsi baxımından mühüm elmi əhəmiyyət daşıyır.

Günay Kərimova doktorantura təhsili müddətində Koreya Universitetinin Su Keyfiyyəti Laboratoriyası tərəfindən də yüksək qiymətləndirilib və uğurlu PhD müdafiəsinə görə təşəkkürnaməyə layiq görülüb.

2021-ci ildə Qlobal Koreya Təqaüd proqramının (The Global Korea Scholarship (GKS)) qalibi olan Günay Kərimova 2022–2025-ci illəri əhatə edən PhD fəaliyyəti dövründə beynəlxalq səviyyədə mühüm uğurlara imza atıb. Onun ekoloji mühəndislik və hidrobiologiya sahəsində

Gunay Karimova, a 2016 graduate of Khazar University's History and Geography Teacher Education program, has successfully defended her doctoral dissertation at Korea University (Seoul, South Korea), earning a Doctor of Philosophy (PhD) degree in Environmental Science & Ecological Engineering.

Her dissertation is titled "Combined Toxicity of the Insecticide Diflubenzuron and Polylactic Acid Microplastics on Daphnia magna: Role of Humic Acid and UV Weathering." The research investigates the combined toxic effects of the insecticide diflubenzuron and polylactic acid-based microplastics on Daphnia magna organisms inhabiting aquatic ecosystems, as well as the role of humic acid and UV radiation in this process. The subject carries significant scientific importance in terms of aquatic ecosystem protection and water quality assessment.

During her doctoral studies, Karimova was highly commended by the Water Quality Laboratory of Korea University and received a letter of appreciation for her successful PhD defense.

A recipient of the Global Korea Scholarship (GKS) in 2021, Karimova achieved notable international milestones throughout her PhD tenure spanning 2022–2025. Her research in ecological engineering and hydrobiology has been highly recognized on prestigious scientific platforms and has earned her a number of awards.

In 2022, Karimova presented her research paper titled "Development of Harmful Algae Bloom Control Technology Using Daphnia-Derived Infochemicals" at the Korean Society of Ecological and Infrastructure Engineering Con-




*Günay Kərimova*

apardığı tədqiqatlar nüfuzlu elmi platformalarda yüksək qiymətləndirilib və bir sıra mükafatlarla təltif olunub.

Günay Kərimova 2022-ci ildə Seul şəhərində Ekoloji və İnfrastruktur Mühəndislik Koreya Cəmiyyəti tərəfindən təşkil olunan konfransda (Korean Society of Ecological and Infrastructure Engineering Conference, 2022 응용생태공학회) "Development of harmful algae bloom control technology using Daphnia-derived infochemicals" adlı elmi araşdırma ilə çıxış edib və həmin tədqiqat işi ən yaxşı iş kimi qiymətləndirilərək "Qızıl mükafat"a ("Gold Award") layiq görülüb.

Günay Kərimova daha bir uğurunu 2024-cü ilin iyul ayında Seulda Asiya Hidrobiologiya Cəmiyyəti (Asian Society for Hydrobiology) tərəfindən təşkil olunan 6-cı ikillik konfransda (6th Biannual Conference of the Asian Society for Hydrobiology – ASH) qazanıb. "The sublethal toxicity (48h) for Diflubenzuron on water flea, Daphnia magna" adlı tədqiqat işi yüksək elmi dəyərinə görə , nüfuzlu Brain Korea 21 (BK21 – Brain Korea 21 Program) "Best Award" – "Ən Yaxşı Mükafat" ilə qiymətləndirilib.

Cənubi Koreya, Yaponiya, Çin və Qazaxıstanda keçirilən müxtəlif beynəlxalq konfranslarda da aktual ekoloji problemlərə dair məruzələrlə çıxış etmiş Günay Kərimova su ekosistemlərinin qorunması, biomüxtəlifliyin davamlı idarə olunması və antropogen təsirlərin qiymətləndirilməsi kimi mövzularla elmi ictimaiyyət qarşısına çıxıb.

Günay Kərimovanın uğuru Xəzər Universitetinin məzunlarının beynəlxalq elmi mühitdə əldə etdiyi nailiyyətlərin növbəti nümunəsidir.

ference (2022 응용생태공학회) held in Seoul. The study was recognized as the best paper and awarded the Gold Award.

Karimova achieved another distinction in July 2024 at the 6th Biannual Conference of the Asian Society for Hydrobiology (ASH), held in Seoul. Her research paper titled "The Sublethal Toxicity (48h) for Diflubenzuron on Water Flea, Daphnia magna" was recognized for its high scientific merit and honored with the prestigious Brain Korea 21 (BK21 – Brain Korea 21 Program) Best Award.

Having also presented papers on pressing environmental issues at various international conferences held in South Korea, Japan, China, and Kazakhstan, Karimova has addressed the scientific community on topics including aquatic ecosystem protection, sustainable biodiversity management, and the assessment of anthropogenic impacts.

Karimova's achievement stands as yet another example of the accomplishments attained by Khazar University graduates in the international scientific arena.

## LATVİYA UNİVERSİTETİNİN NÜMAYƏNDƏSİ XƏZƏR UNİVERSİTETİNDƏ



Martin Saboviç



## REPRESENTATIVE OF LATVIAN UNIVERSITY VISIT KHAZAR UNIVERSITY

Latviya Həyat Elmləri və Texnologiyaları Universitetinin Beynəlxalq Əməkdaşlıq Mərkəzinin rəhbəri Martin Saboviç martın 11-də Xəzər Universitetində olub. "Xəzər"in Beynəlxalq əlaqələr şöbəsi əməkdaşlarının iştirakı ilə keçirilən görüşdə universitetlər arasında mövcud və potensial əməkdaşlıq imkanları müzakirə edilib.

Tərəflər akademik mübadilə proqramları, xüsusilə, Erasmus+ çərçivəsində tələbə və müəllim mübadiləsinin genişləndirilməsi, iki universitet arasında anlaşma memorandumunun (MoU) imzalanması, eləcə də bakalavr səviyyəsində bir sıra ixtisaslar üzrə ikili diplom proqramlarının yaradılması və gələcəkdə birgə beynəlxalq layihələrin hazırlanması imkanları barədə fikir mübadiləsi aparıblar.

Görüş çərçivəsində Xəzər Universitetinin tanıtım təqdimatı nümayiş etdirilib, universitetin təhsil proqramları, beynəlxalq əməkdaşlıq fəaliyyəti, elmi-tədqiqat istiqamətləri və infrastrukturu barədə ətraflı məlumat verilib. Qonaq isə Latviya Həyat Elmləri və Texnologiyaları Universitetinin fakültələri və akademik imkanları haqqında məlumat verib. Bildirilib ki, həmin universitetdə də "Xəzər"də olduğu kimi, bir sıra ortaq istiqamətlər üzrə fakültələr fəaliyyət göstərir. Baytarlıq təbabəti (Veterinary Medicine) sahəsində ixtisaslaşmış fakültə mövcuddur. Qonaq qeyd edib ki, tələbələrin praktiki bacarıqlarının inkişafı üçün universitetin nəzdində onların təhsil müddətində istifadə edə biləcəkləri klinika mövcuddur və tələbələr burada təcrübə keçmək imkanı əldə edirlər.

Görüşdən sonra Martin Saboviç Xəzər Universitetinin laboratoriyalarına baş çəkib, burada aparılan elmi-tədqiqat işləri və mövcud laboratoriya infrastrukturu ilə tanış olub.

Martin Sabovič, Head of the International Cooperation Centre at the Latvia University of Life Sciences and Technologies, visited Khazar University on March 11. The meeting, held with the participation of staff from Khazar's International Relations Office, focused on existing and potential areas of cooperation between the two universities.

The parties exchanged views on academic exchange programmes - in particular, the expansion of student and faculty mobility under the Erasmus+ framework - as well as the signing of a Memorandum of Understanding (MoU) between the two universities, the establishment of dual degree programmes in a number of undergraduate specialisations, and prospects for developing joint international projects in the future.

During the meeting, a promotional presentation of Khazar University was delivered, providing detailed information on the university's academic programmes, international cooperation activities, research directions, and infrastructure. The guest, in turn, presented an overview of the faculties and academic opportunities at the Latvia University of Life Sciences and Technologies. It was noted that, similarly to Khazar, the university operates faculties across a number of shared fields of study. A faculty specialising in Veterinary Medicine is among those in operation. The guest highlighted that the university maintains an on-campus clinic available to students throughout their studies, providing them with the opportunity to undertake practical training.

Following the meeting, Martin Sabovič visited Khazar University's laboratories, where he familiarised himself with the ongoing research activities and the existing laboratory infrastructure.

## “XƏZƏR”İN TƏLƏBƏSİ AMERİKADA KEÇİRİLƏN BEYNƏLXALQ SƏRGİDƏ

ABŞ-da, Birləşmiş Millətlər Təşkilatının Nyu-York şəhərində yerləşən Mənzil Qərargahında Novruz bayramı münasibətilə “Mədəni diplomatiya üçün incəsənət: Azərbaycan - Şərqlə Qərbin qovuşduğu məkan” adlı sərgi təşkil olunub. Sərginin kataloqunda Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Novruz bayramı və Azərbaycan mədəniyyəti ilə bağlı fikirlərinə yer verilib.Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyinin təşkilati dəstəyi ilə keçirilən bu beynəlxalq sərgidə Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin Memarlıq



ixtisası üzrə 2-ci kurs tələbəsi ElmiraNovruzova da iştirak edib. O, öz yaradıcılığı ilə Azərbaycan mədəniyyətini və incəsənətini beynəlxalq səviyyədə uğurla təmsil edib.

Sərginin açılışı martın 23-də olub. Açılışda “Dirçəliş” Gənclərin Sosial- Psixoloji Reabilitasiya Mərkəzinin direktoru İslam Baxşəliyev çıxış edib. Tədbir çərçivəsində iştirakçılara sertifikatlar, sərgi kataloqu və xatirə hədiyyələri təqdim edilib.

Tədbir həm yerli, həm də xarici mediada geniş işıqlandırılıb.

## KHAZAR STUDENT IN INTERNATIONAL EXHIBITION HELD IN UNITED STATES

An exhibition titled "Art for Cultural Diplomacy: Azerbaijan - Where East Meets West" was organized at the United Nations Headquarters in New York City, USA, on the occasion of Novruz holiday. The exhibition catalogue




*Elmira Novruzova, İslam Baxşəliyev*

featured remarks by the President of the Republic of Azerbaijan, Supreme Commander-in-Chief Ilham Aliyev on Novruz and Azerbaijani culture.

Elmira Novruzova, a second-year student of the Architecture program at the Faculty of Natural Sciences and Engineering of Khazar University, also participated in this international exhibition, organized with the organizational support of the Permanent Mission of Azerbaijan to the United Nations. She successfully represented Azerbaijani culture and art at the international level through her creative works.

The opening ceremony of the exhibition was held on March 23. Islam Bakhshaliyev, Director of the "Dirchalis" Youth Social-Psychological Rehabilitation Centre, delivered a speech at the opening. Within the framework of the event, participants were presented with certificates, exhibition catalogues, and commemorative gifts.

The event received extensive coverage in both local and international media.

*https://creativitys.uk/azerbaijan-where-east-meets-west-at-the-un-headquarters/*
*https://report.az/medeniyyet-siyaseti/bmt-de-azerbaycanli-genc-ressamlarin-islerinden-ibaret-sergi-acilib*

# ALMATIDA “AZƏRBAYCANDA TƏHSİL” SƏRGİSİ VƏ REKTORLAR FORUMU

Aprelin 6-8-də “Azərbaycanda təhsil” (“Study in Azerbaijan”) adlı təhsil sərgisi təşkil olunub. Sərgi Azərbaycan universitetlərinin beynəlxalq tanıdılması, təhsil imkanlarının təqdimatı və akademik əməkdaşlığın genişləndirilməsi baxımından mühüm platforma hesab olunur.

Sərgi çərçivəsində aprelin 6-da Qazaxıstan və Azərbaycan universitetlərinin rektorlarının II Forumu keçirilib. Forumun açılışında Qazaxıstanın elm və ali təhsil naziri Sayasat Nurbek çıxış edib.




*Astana Beynəlxalq Universitetinin rektoru Anar Mirzaqaliyeva, Raziyə İsayeva*

Sonra hər iki ölkənin elm və təhsil nazirləri tərəfindən əsas məruzələr təqdim edilib, iki ölkə universitetləri arasında əməkdaşlıq memorandumlarının imzalanması mərasimi olub.

Tədbirdə Xəzər Universiteti Qazaxıstanın iki universiteti (Astana Beynəlxalq Universiteti və Abylkas Saginov Karaganda Texniki Universiteti) ilə əməkdaşlıq memorandumları (MOU) imzalayıb.

Forum və sərgidə Xəzər Universitetinin nümayəndə heyəti də iştirak edib. Xəzər Universitetini rektor Dr. Raziyə İsayeva, Keyfiyyət Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Firuz Süleymanov təmsil edib.

# "STUDY IN AZERBAIJAN" EXHIBITION AND RECTORS' FORUM IN ALMATY

The "Study in Azerbaijan" education exhibition is being organized at Al-Farabi Kazakh National University in Almaty, Kazakhstan, from April 6–8, 2026. The exhibition is considered an important platform in terms of the international recognition of Azerbaijani universities, the presentation of educational opportunities, and the expansion of academic cooperation.

Within the exhibition, the 2nd Forum of Rectors of Kazakhstani and Azerbaijani Universities was held on April 6. Kazakhstan's Minister of Science and Higher Education Sayasat Nurbek delivered a speech at the opening of the forum.

Keynote addresses were then presented by the ministers of science and education of both countries, followed by a memorandum of cooperation signing ceremony between universities of the two countries.

At the event, Khazar signed memoranda of understanding (MOUs) with two Kazakhstani universities - Astana International University and Karaganda Technical University named after Abylkas Saginov.




*Lyudmila Sotova, Raziyə İsayeva, Firuz Süleymanov*

A delegation from Khazar University is also participating in the forum and exhibition. Khazar University is represented by Rector Dr. Razia Isaeva, Di-

Forum çərçivəsində Azərbaycan və Qazaxıstan universitetlərinin rektorları çıxış edərək, təhsil sahəsində əməkdaşlıq perspektivlərini müzakirə ediblər. Bu müzakirələr iki ölkə arasında akademik əlaqələrin daha da möhkəmlənməsinə yönəlib.

Səfər çərçivəsində Raziyə İsayeva yerli televiziya kanalına verdiyi müsahibədə təhsil sərgisində iştirakın məqsədi, universitetin ali təhsil imkanları, əcnəbi tələbələr üçün yaradılan şərait və Xəzər Universitetinin Qazaxıstan universitetləri ilə ikili diplom proqramları, tələbə və akademik heyət mübadiləsi, birgə elmi tədqiqatlar və digər akademik əməkdaşlıq istiqamətlərində də maraqlı olduğunu vurğulayıb.

Qeyd edək ki, "Study in Azerbaijan" sərgisi tələbələrə və gənc mütəxəssislərə xaricdə keyfiyyətli təhsil almaq imkanlarını təqdim etməklə yanaşı, region ölkələri arasında elmi və akademik əməkdaşlığın inkişafına mühüm töhfə verir.




rector of the Quality Assurance Center Lyudmila Sotova, and Head of the International Relations Office Firuz Suleymanov.

Within the framework of the forum, rectors of Azerbaijani and Kazakhstani universities delivered speeches and discussed prospects for cooperation in the field of education. These discussions are aimed at further strengthening academic ties between the two countries.

During the visit, in an interview with a local television channel, Raziya Isayeva emphasized the purpose of participating in the education exhibition, the university's higher education opportunities, the conditions created for international students, and Khazar University's interest in pursuing dual degree programs, student and academic staff exchanges, joint scientific research, and other areas of academic cooperation with Kazakhstani universities.

It should be noted that the "Study in Azerbaijan" exhibition not only presents opportunities for students and young professionals to receive quality education abroad, but also makes a contribution to the development of scientific and academic cooperation among countries.

## TÜRKOLOJİ QURULTAYIN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ SİMPOZİUM

Xəzər Universitetində Türkoloji qurultayın 100 illik yubileyinə həsr olunan "3-cü ortaq türk keçmişindən ortaq türk gələcəyinə doğru: 100-cü ildönümündə Türkoloji qurultaydan bu günə ortaq əlifba məsələləri" mövzusunda martın 2-3-də beynəlxalq elmi simpozium keçirilib. Tədbir Mədəni Antropologiya və Folklor İnstitutu (MAFİ), Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) və Yeni Türkiyə Strateji Araşdırma Mərkəzinin





Aynur Qəzənfərqızı

(YTSAM) birgə təşkilatçılığı ilə hazırlanıb.

Simpoziumun açılışında çıxış edən "Xəzər MAFİ"nin koordinatoru Dos. Aynur Qəzənfərqızı tədbirin əsas məqsədinin ortaq əlifba ideyasının tarixi köklərini yenidən gündəmə gətirməklə, müasir çağırışlar fonunda elmi müzakirə platforması yaratmaq olduğunu bildirib. O, Türkoloji qurultayın qərarlarının yüz il



Şükrü Haluk Akalın

sonra da aktuallığını qoruduğunu vurğulayıb.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı türk dünyasının ortaq elmi-mədəni irsinin gələcək nəsillərə ötürülməsində vahid əlifba və dil birliyinin vacib rolunu xüsusi qeyd edib. Türk Dil Qurumunun nü-

## INTERNATIONAL SYMPOSIUM DEDICATED TO 100TH ANNIVERSARY OF TURKOLOGICAL CONGRESS

An international scientific symposium titled "From the 3rd Common Turkic Past to the Common Turkic Future: Common Alphabet Issues from the Turkological Congress to the Present at Its 100th Anniversary" was held on March 2–3, at Khazar University, dedicated to the 100th anniversary of Turkological Congress. The event was jointly organized by Institute of Cultural Anthropology and Folklore (ICAF), Turkish Cooperation and Coordination Agency (TCCA), and New Türkiye Strategic Research Center (NTSRC).

Speaking at the opening ceremony, Assoc. Prof. Aynur Gazanfargizi, coordinator of Khazar ICAF, sta-



Seyfəddin Altaylı

ted that the main objective of the event was to bring the idea of a common alphabet back onto the agenda and to create a scientific discussion platform in the context of contemporary challenges. She emphasized that the resolutions of the Turkological Congress re-

mayəndəsi Prof. Şükrü Haluk Akalın ortaq əlifbanın türk xalqlarının bir-birini tərcüməsiz anlamasını təmin edəcək ən güclü mənəvi körpü olduğunu bildirib. Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu Türkoloji qurultayın ideyalarını yaşatmağın tarixi bir borc olduğunu deyib. Yeni Türkiyə Strateji Araşdırma



*Maralbek Kapalbekov*

Mərkəzinin nümayəndəsi Prof. Bilgehan Atsız Gökdağ türk dövlətləri arasında strateji dil siyasətinin formalaşdırılmasının qaçılmazlığını əsaslandırıb. Özbəkistan Elmlər Akademiyasının təmsilçisi Nigora Halbekova isə dil birliyinin milli kimliyimizin əsası olduğunu və ortaq əlifbanın gələcək nəsillər üçün əhəmiyyətini diqqətə çatdırıb. Qazaxıstanın Ahmet Baytursunuly Dilçilik İnstitutunun təmsilçisi Dos. Maralbek Kapalbekov isə müasir dövrdə türk dillərinin qrafik inteqrasiyasının qlobal rəqabətliliyə təsirini geniş şəkildə təhlil edib. Həmçinin, Xəzər MAFİ nümayəndəsi Prof. Ali Yakıcı mövzu ilə bağlı mühüm elmi mülahizələrini bölüşüb.

Tədbirin bədii hissəsində aşıq Ramin Qarayevin ifası iştirakçılara türk dünyasının zəngin folklor irsini bir daha xatırladıb.

Simpozium çərçivəsində martın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin binasında bölmə iclası keçirilib. İclasa AMEA-nın prezidenti Akad. İsa Həbibbəyli moderatorluq edib.

Bölmə iclası İsa Həbibbəylinin giriş sözü ilə başlayıb. O, Türkoloji qurultayın elmi irsinin müasir türkoloji araşdırmalar üçün mühüm istiqamətlər müəyyənləşdirdiyini bildirib.

İclasda müxtəlif ölkələrdən olan alimlər məruzələrlə çıxış ediblər. Şükrü Haluk Akalın "Birinci Tür-

(*Ardı səh.74-də*)



*İsa Həbibbəyli*

main relevant even a hundred years later.

Prof., Acad. Hamlet Isakhanli, Founder and Chairman of the Board of Directors and Trustees of Khazar University, highlighted the vital role of a unified alphabet and linguistic unity in transmitting the common scientific and cultural heritage of the Turkic world to future generations. Prof. Şükrü Haluk Akalın, representative of the Turkish Language Association, stated



*Bilgehan Atsız Gökdağ*

that a common alphabet would serve as the most powerful spiritual bridge ensuring that Turkic peoples understand one another without translation. Assoc. Prof. Telman Nusratolu, Head of the Department of History and Archaeology at Khazar University, noted that keeping the ideas of the Turkological Congress alive is a historical duty. Prof. Bilgehan Atsız Gökdağ, representative of the New Türkiye Strategic

(*To be continued page 74*)

koloji qurultaydan modern türk sözlükçülüyünün doğuşuna” mövzusundakı çıxışında qurultayın türk leksikoqrafiyasının inkişafına təsirindən danışıb. AMEA Akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun nümayəndəsi Dos. Zülfiyə Vəliyeva Önlen “Latın qrafikasına keçidin yüzilliyində yeni nəslin problemləri” mövzusunda məruzə edib.

Daşkəndli alim Dos. Jura Xudoyberdiyev “Birinci Türkologiya qurultayında türk dillərində sin-




*Nigora Halbekova*

xarmonizmin müzakirəsi” mövzusunda çıxış edərək, qurultay materiallarının dilçilik baxımından əhəmiyyətini diqqətə çatdırıb. Qazaxıstan Dövlət Dilinin İnkişafı İnstitutunun nümayəndəsi Prof. Bijomart Kapalbekov isə “Türkologiyada Avropa-mərkəzçilikdən müstəqil beynəlxalq yanaşma” mövzusunda çıxışında türkoloji araşdırmalarda milli elmi metodologiyanın rolunu qeyd edib.

Məruzələrdən sonra mövzular ətrafında müzakirələr olub və bölmə iclası yekunlaşdırılıb.

İki günlük simpozium bölmə iclasları, panel müzakirələri və açıq debatlarla yekunlaşıb. Sonda qəbul olunan nəticə sənədində ortaq əlifba istiqamətində elmi-təşkilati əməkdaşlığın gücləndirilməsi, birgə tədqiqat layihələrinin hazırlanması və türk dövlətlərinin ali təhsil müəssisələri arasında koordinasiyanın artırılması əsas prioritetlər kimi müəyyənləşdirilib.

Qeyd olunub ki, Türkoloji qurultayın 100 illiyi münasibətilə keçirilən bu simpozium türk dünyasında dil birliyi ideyasının yenidən strateji gündəmdə olmasına və gələcək nəsillər üçün davamlı elmi platformanın formalaşmasına mühüm töhfədir.

**Aydan Əliyeva**
*Xəzər Universiteti, Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə 2-ci kurs tələbəsi*
**Nigar Ələsgərli**
*Xəzər Universiteti, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası üzrə 2-ci kurs tələbəsi*




*Erden Gajıbekob*

Research Center, substantiated the inevitability of forming a strategic language policy among Turkic states. Nigora Halbekova, representative of the Academy of Sciences of Uzbekistan, drew attention to linguistic unity as the foundation of national identity and the significance of a common alphabet for future generations. Assoc. Prof. Yermukhamet




*Ali Yakıcı*

Maralbek, representative of the Ahmet Baytursunuly Institute of Linguistics of Kazakhstan Assoc.Prof. Maralbek Kapalbekov, provided an extensive analysis of the impact of graphic integration of Turkic languages on global competitiveness in the modern era.



Additionally, Prof. Ali Yakıcı, representative of Khazar ICAF, shared significant scientific reflections on the subject.

During the cultural segment of the event, a performance by ashug Ramin Garayev once again reminded participants of the rich folkloric heritage of the Turkic world.

On the sidelines of the symposium, a section session was held on March 3 at the building of the Presidium of the ANAS. The session was moderated by ANAS President Acad. Isa Habibbayli.

The session opened with introductory remarks by Isa Habibbayli, who noted that the scientific legacy of the Turkological Congress has defined important directions for contemporary Turkological research.

Scholars from various countries delivered presentations at the session. Şükrü Haluk Akalın spoke on the topic "From the First Turkological Congress to the Birth of Modern Turkish Lexicography," addressing the Congress's influence on the development of Turkic lexicography. Assoc. Prof. Zulfiya Valiyeva Önlen, representative of the ANAS Institute of Oriental Studies named after Acad. Z.M. Bunyadov, delivered a paper titled "Problems of the New Generation on the Centenary of the Transition to the Latin Script." Tashkent-based scholar Assoc. Prof. Jura Khudoyberdiyev presented on "Discussion of Synharmonism in Turkic Languages at the First Turkological Congress," highlighting the significance of the Congress materials. Prof. Bijomart Kapalbekov, representative of the Institute for the Development of the State Language of Kazakhstan, addressed "From Eurocentrism to an Independent International Approach in Turkology" in his presentation, underscoring the role of national scientific methodology in Turkological research.

The section session came to an end after discussions on the subjects covered in the presentations.

The two-day symposium concluded with section sessions, panel discussions, and open debates. The final declaration adopted at the close identified the strengthening of scientific and organizational cooperation in the field of a common alphabet, the development of joint research projects, and the enhancement of coordination among higher education institutions of Turkic states as key priorities.

It was noted that this symposium, held on the occasion of the 100th anniversary of the Turkological Congress, constitutes a significant contribution to placing the idea of linguistic unity in the Turkic world back on the strategic agenda and to the formation of a sustainable scientific platform for future generations.

**Aydan Aliyeva**
*Khazar University, 2nd-year student, Philology (Azerbaijani Language and Literature)*

**Nigar Alesgarli**
*Khazar University, 2nd-year student, Azerbaijani Language and Literature Teaching*

## *“BOZQIR MƏDƏNİYYƏTİNİN TƏŞƏKKÜLÜ” MÖVZUSUNDA ONLAYN SEMİNAR*

Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin inteqrativ dərs layihəsi çərçivəsində martın 12-də onlayn seminar təşkil olunub. Departamentin müəllimi Maral Əskərovanın təşkilatçılığı ilə keçirilən seminar “Türk dünyası mədəniyyəti” kursunun “Bozqır mədəniyyəti və onun təşəkkülü” mövzusuna həsr edilib.

Seminarın qonaq mütəxəssisi, türk ləhcələri və ədəbiyyatları (Qıpçaq dilləri) və türk kültürü sahəsində sanballı araşdırmalar aparmış Türkiyənin Afyon Kocatepe Universitesinin professoru Cüneyt Akın olub. O, uzun illər Qırğızıstanda fəaliyyət göstərib, qırğız dilinin dialektləri və söz varlığı üzərində fundamental tədqiqatları ilə tanınıb. Son illərdə isə Cüneyt Akının türk kültürü, türk siyasəti, türk dövlət quruculuğunda adət-ənənə kimi, mövzulardakı araşdırmaları diqqət çəkməkdədir. Onun “Türk Devletleri Teşkilatının Türk Birliğine Dönüşme İmkânı” adlı kitabı sahə üzrə gərgin fəaliyyətinin göstəricisidir.

İnteraktiv formatda keçən dərsdə tələbələrə “Avrasiya bozqırlarının coğrafi və ekoloji konteksti”, ”Proto-türk toplumlarının arxeoloji izləri” (e.ə. III–I minilliklər), “Köçəri həyat tərzinin sosial-iqtisadi əsasları”, “Hun və Göytürk dövlətçilik ənənəsi, Orxon kitabələri”, ”Maddi mədəniyyət, atçılıq və metallurgiya texnologiyaları istiqamətləri” üzrə geniş məlumat verilib.

Professor Cüneyt Akının öz təqdimatını Azərbaycan dilində etməsi və materiallarını tələbələr üçün məhz bu dildə hazırlaması iştirakçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

Seminarın sonunda mütəxəssis yaradılan şəraitə görə, universitet rəhbərliyinə öz təşəkkürünü bildirib.

## *ONLINE SEMINAR ON "THE FORMATION OF STEPPE CULTURE"*

An online seminar was organized on March 12, within the framework of an integrative course project of the Languages and Literatures Department at Khazar University. The seminar, arranged by department instructor Maral Askarova, was dedicated to the topic "Steppe Culture and Its Formation" from the course "Culture of the Turkic World."

The seminar’s guest expert was Prof. Cüneyt Akın of Türkiye’s Afyon Kocatepe University, who has conducted extensive research in the fields of Turkic dialects and literatures (Kipchak languages) and Turkic culture. He worked in Kyrgyzstan for many years and is known for his fundamental studies on the dialects and vocabulary of the Kyrgyz language. In recent years, Cüneyt Akın’s research has focused on topics such as Turkic culture, Turkic politics, and traditions in Turkic state-building, attracting significant attention. His book titled “Türk Devletleri Teşkilatının Türk Birliğine Dönüşme İmkânı” reflects his in-depth work in the field.

During interactive session, students were provided with information on the following topics: “The geographical and ecological context of the Eurasian steppes,” “Archaeological traces of proto-Turkic societies” (3rd–1st millennia BC), “Socio-economic foundations of the nomadic lifestyle,” “The statehood traditions of the Huns and Göktürks, the Orkhon inscriptions,” and “Directions in material culture, horsemanship, and metallurgical technologies.”

The fact that Prof. Cuneyt Akin delivered his presentation in Azerbaijani and prepared his materials for students specifically in that language was met with great appreciation by the participants.

At the end of the seminar, the expert expressed his gratitude to the university administration for the conditions provided.

## *"XƏZƏR”İN REKTORU AKDENİZ UNİVERSİTETİNDƏ*

## *KHAZAR UNIVERSITY RECTOR VISIT AKDENIZ UNIVERSITY*

Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva martın 23-31-də Erasmus+ Staff Mobility proqramı çərçivəsində Türkiyənin Akdeniz Universitetində olub.

Səfərin ilk günündə Raziyə İsayeva Akdeniz Universitetinin Təhsil fakültəsinin dekanı Prof.Dr. Hilmi Demirkaya və fakültə əməkdaşları ilə görüş keçirib. Görüş zamanı universitetin fəaliyyəti barədə ətraflı məlumat verilib, eyni zamanda, tərəflər arasında potensial əməkdaşlıq istiqamətləri və birgə layihələr müzakirə edilib.

Khazar University Rector Dr. Razia Isaeva visited Akdeniz University in Türkiye from March 23 to 31, within the framework of the Erasmus+ Staff Mobility program.

On the first day of the visit, Rector Isaeva met with Prof. Dr. Hilmi Demirkaya, Dean of the Faculty of Education at Akdeniz University, and faculty staff. During the meeting, detailed information was shared regarding the university's activities, and potential areas of collaboration and joint projects between the two parties were discussed.



*Raziyə Isayeva, Özlenen Özkan*

Rektor R. İsayeva Akdeniz Universitetinin Beynəlxalq Əlaqələr Ofisində də olub. Görüşdə akademik mübadilə, birgə tədqiqat layihələri və beynəlxalq əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər gələcəkdə əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduqlarını vurğulayıblar.

Akdeniz Universitetinin rektoru Prof.Dr. Özlenen Özkan ilə keçirilən görüş xüsusi əhəmiyyət kəsb edib. Görüşdə iki universitet arasında gələcək akademik əməkdaşlıq imkanları, birgə proqramların təşkili, elmi-tədqiqat sahəsində əməkdaşlıq və tələbə-müəllim mübadiləsi məsələləri müzakirə olunub. Tərəflər universitetlər arasında güclü və davamlı tərəfdaşlığın qurulmasına dair niyyətlərini bildiriblər.

Proqram çərçivəsində rektor R. İsayeva Azərbaycan ali təhsil sistemi və tələbə fəallığı sahəsində apardığı elmi tədqiqatlara həsr edilmiş seminar keçirib. Seminarda Akdeniz Universitetinin professor-müəllim heyəti, bakalavr və magistr tələbələri iştirak edib.

Səfərin mühüm istiqamətlərindən biri olan institusional əməkdaşlığın genişləndirilməsi, o cümlədən, əməkdaş və tələbə mübadiləsi proqramlarının inkişafı ilə əlaqədar Akdeniz Universitetinin Turizm fakültəsində görüş olub, turizm və təhsil sahələri üzrə ikili diplom proqramlarının yaradılması istiqamətində danışıqlar aparılıb.

Qeyd edilib ki, səfər çərçivəsində keçirilən görüşlər və tədbirlər hər iki universitet arasında strateji tərəfdaşlığın möhkəmləndirilməsinə və uzunmüddətli əməkdaşlıq əlaqələrinin qurulmasına mühüm töhfə verəcək.

Rector Isaeva also visited the International Relations Office of Akdeniz University, where an exchange of views took place on academic mobility, joint research projects, and international cooperation prospects. Both parties emphasized their interest in further expanding collaboration in the future.

The meeting with Akdeniz University Rector Prof. Dr. Özlenen Özkan was of particular significance. The discussions focused on future academic cooperation opportunities between the two universities, the organization of joint programs, collaboration in the field of scientific research, and student-faculty exchange. Parties expressed intention to establish a strong and sustainable partnership between the institutions.

Within the framework of the program, Rector Isaeva conducted a seminar dedicated to her research on the Azerbaijani higher education system and student engagement. The seminar was attended by faculty members, as well as undergraduate and graduate students of Akdeniz University.

A meeting was also held at the Faculty of Tourism of Akdeniz University regarding the expansion of institutional cooperation — one of the key directions of the visit — including the development of staff and student exchange programs, and negotiations were conducted on the establishment of dual degree programs in the tourism and education.

It was noted that the meetings and events held during the visit will make a significant contribution to strengthening the strategic partnership between the two universities and to building long-term cooperative ties.

# "ŞOKOLAD" TƏPƏLƏR



Təbiət ən yaxşı arxitektor və kamil dizaynerdir. Doğrudur, o, elə də sürətlə işləmir. Bir mükəmməl sənət möcüzəsini yaratmaq üçün ona milyon illər gərək olur. Amma təbiət bəşər övladını yaranışdan heyrətdə saxlamağı bacarır və təəccübləndirməkdə davam edir.

Filippində yerləşən bu "möcüzə" təpələrin unikallılğı onun böyük qayaların küncləri sayəsində düzgün konus forması almasıdır. O ki qaldı adına- təpələrin üstünü örtən otlar quru mövsümdə günəşin şüaları altında palıdı rəng alır və ətraf meşələrin parlaq yaşıllığı fonunda göz oxşayır. Elə buna görə də təpələri dünyanın "şokolad" möcüzəsi adlandırırlar.

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* İnşaat mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Radiotexnika və telekommunikasiya mühəndisliyi
* Fizika müəllimliyi
* Riyaziyyat və informatika (rəqəmsal bacarıqlar) müəllimliyi
* Elektrik və elektronika mühəndisliyi
* Memarlıq
* İnformasiya təhlükəsizliyi

### 2 QRUP

* Biznesin idarə edilməsi
* İqtisadiyyat
* Maliyyə
* Marketinq
* Menecment
* Mühasibat
* Turizm işinin təşkili
* Coğrafiya müəllimliyi
* Tarix-coğrafiya müəllimliyi

### 3 QRUP

* Filologiya (ingilis dili və ədəbiyyatı)
* Tərcümə (ingilis, ərəb, fars və Çin dilləri)
* Xarici dil müəllimliyi (ingilis dili üzrə)
* Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi
* Politologiya
* Beynəlxalq münasibətlər
* Regionşünaslıq

### 4 QRUP

* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya
* Baytarlıq təbabəti
* Biotexnologiya

### 5 QRUP

* Dizayn (qrafik dizayn, interyer dizaynı və landşaft dizaynı)
* Təsviri incəsənət müəllimliyi